RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 167 (9046) ÇƏRŞƏNBƏ AXŞAMI, 9 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Məşğulluğun təminatı dövlətin sosial siyasətinin ana xəttidir

Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsi daim diqqət mərkəzində olan məsələdir. Bu, Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin, eləcə də həyata keçirilən sosial islahatların ayrılmaz hissəsini təşkil edir. 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramının icrasına start veriləndən üzübəri həyata keçirilən ardıcıl tədbirlər nəticəsində ölkədə çoxsaylı iş yerləri açılıb.

Buna ilk növbədə qeyri neft-qaz sektorunun getdikcə irəliləməsi, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması sayəsində yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması zəmin yaradıb. Əməkqabiliyyətli insanların işlə təmin edilməsi üçün yeni yollar axtarılır, məşğulluğun yeni formaları tapılır, bu məqsədlə daxili ehtiyat mənbələrindən geniş istifadə olunur.

Əhalinin işlə təminatının daim diqqət mərkəzində olduğunu Dövlət Statistika Komitəsinin təqdim etdiyi rəqəmlər də təsdiqləyir. Təkcə keçən il Azərbaycanda 69 min yeni iş yeri açılıb. Bu da onu göstərir ki, əhalinin məşğulluğunun təmin edilməsi dövlətin prioritetləri sırasında qalmaqdadır.

→ 5

## Amerika Birləşmiş Ştatlarının Birmingem şəhərində keçirilən XI Dünya Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Amerika Birləşmiş Ştatlarının Birmingem şəhərində keçirilən XI Dünya Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri aşağıdakı məbləğdə mükafatlandırılsınlar:

1.1. birinci yeri tutmuş idmançı - 20000 manat, onun şəxsi məşqçisi - 10000 manat, həmin idman növü üzrə baş məşqçi - 10000 manat;

1.2. üçüncü yeri tutmuş komanda - 20000 manat, komandanın hər bir məşqçisi - 5000 manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 avqust 2022-ci il*

## Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Qaradağ rayonunun Qızıldaş, Qobustan, Lökbatan və Sahil qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 5,3 milyon (beş milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 avqust 2022-ci il*

## Cənubi Qafqaza yenilik gətirən layihə

İki ilə yaxındır ki, Azərbaycanın həyatında yeni bir dövr başlayıb. İşğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Görülən işlərin miqyasına diqqət yetirdikdə Azərbaycanın iqtisadi imkanlarının aydın mənzərəsini göz önündə canlandırmaq mümkündür. Prezident İlham Əliyevin rəhbərliyi altında ərazi bütövlüyümüz bərqərar edildi və bu gün belə nəhəng layihələr həyata keçirilərək azad edilmiş torpaqların çiçəklənən bir diyara çevrilməsi istiqamətində qətiyyətli və sürətli işlər görülür. Artıq doğma Qarabağda infrastruktur formalaşır. Mərhələ-mərhələ bütün hədəflərə nail olunur.

### Böyük qayıdışın ilk ünvanı

İşğaldan azad olunmuş ərazilər "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulur. Ölkəmizin müstəqil iqtisadiyyatının gücü hesabına Böyük qayıdış prosesinə start verilib və ilk olaraq zəngilanlıların doğma torpaqlarına köçürülməsi baş tutub. Ötən il aprelin 19-da isə Azərbaycan Prezidenti "ağıllı şəhər" (smart city) və "ağıllı kənd" (smart village) konsepsiyasının hazırlanması haqqında" sərəncam imzalayıb. Qeyd edək ki, Azərbaycanın artıq "ağıllı kənd" layihəsi ilə bağlı təcrübəsi mövcuddur. Belə ki, hələ 2018-ci ilin noyabrında Qax rayonuna səfəri zamanı Prezident İlham Əliyevə ilk dəfə olaraq ölkədə yaradılması planlaşdırılan "ağıllı kənd" layihəsi təqdim edilib.

Dövlət başçısı öz çıxışlarında dəfələrlə bildirib ki, azad olunmuş ərazilər "yaşıl enerji" zonasına çevriləcək.

→ 2

## Yeni islahatlar uğur vəd edir

Uzun illərdir Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və Təhsil Nazirliyinin birləşdirilməsi, iki oxşar qurumun ayrılıqda fəaliyyətinin doğru olmadığı, bəzən isə bunun əksinə olan mülahizələrə rast gəlinirdi.

Bəzi dünya ölkələrində Elm və Təhsil Nazirliyinin birgə fəaliyyəti təcrübəsindən geniş istifadə olunur. Ümumiyyətlə, təhsil və elmin bir-birindən ayrı olmadığı, onların vəhdətinin qorunması vacib məsələ kimi qiymətləndirilir.

Azərbaycanda da Prezident İlham Əliyevin 28 iyul tarixli "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmanı ilə Təhsil Nazirliyi Elm və Təhsil Nazirliyi adlandırıldı və AMEA-nın tabeliyindəki elmi müəssisə və təşkilatlar nazirliyin tabeliyinə verildi.

→ 4

## Milli-mənəvi dəyərlərimiz varlığımız, milli kimliyimizdir

Hər bir xalqın milli-mənəvi dəyərləri, zəngin mədəniyyəti, özünəməxsus adət-ənənələri onun tarixi qədimliyinin əsas göstəricilərindəndir. Əsrdən-əsrə keçən, nəsildən-nəslə ötürülən bu dəyərləri qoruyub saxlamaq, yaşadıb inkişaf etdirmək hər kəsin doğma xalqı qarşısında mənəvi borcu, müqəddəs vəzifəsidir.

Təqdirəlayiqdir ki, Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə, qədim adət-ənənələrinə sadiqdir. Xalqımızın keçib gəldiyi tarixi yol, minilliklərlə formalaşmış bir çox ənənələrimiz bu gün də davam etdirilir.

### Azərbaycan xalqı milli-mənəvi dəyərlərinin işığında yaşayır

Əsrlər boyu azərbaycanlılar dünya xalqları arasında qədim milli-mənəvi dəyərləri ilə tanınıblar. Xalqımız həssaslıqla yanaşdığı, qoruyub saxladığı, yaşatdığı və təbliğ etdiyi milli xüsusiyyətləri, adət-ənənələri ilə dünya mədəni irsində özünəməxsus yer tutur.

Uzun illər aparılan araşdırmalar, tədqiqatlar Azərbaycanda bu gün də mövcud olan bir çox adət-ənənənin qədim köklərə malik olduğunu sübut edir. Mənbələr təsdiq edir ki, Azərbaycan qədim zamanlardan yolunu buradan salanları heyrətə gətirib, heyran qoyub. Onların marağına səbəb olan yalnız məmləkətimizin təbiətinin əsrarəngizliyi, zəngin təbii sərvətlərə malik olması deyildi. Həm də bu gözəl ölkənin sakinlərinin özlərinə məxsus, maraqlı adət-ənənələrinə, milli-mənəvi dəyərlərini uca tutmalarına heyran qalıblar.

→ 4

## Koronavirus payıza doğru aktivləşə bilər

Görünən odur ki, iki ildən artıqdır dünyanın mübarizə apardığı COVID-19 insanlığın yaxasını hələ uzun müddət buraxmayacaq. Qonşu ölkələrin statistik məlumatlarına nəzər yetirsək görərik ki, hazırda infeksiyaya gündəlik yoluxma sayı Gürcüstanda, Rusiyada, Türkiyədə və İranda dəfələrlə artıb.

Dünyada koronavirusa yoluxanların sayı 600 milyona, ölənlərin sayı isə 6,5 milyona yaxındır. Bu statistikanı beynəlxalq təşkilatların, federal və yerli hakimiyyət orqanlarının məlumatları əsasında hesablamalar aparan Cons Hopkins Universiteti bildirib. Məlumata əsasən, bu virusa ən çox yoluxma halları ABŞ, Hindistan, Braziliya, Fransa, Almaniya və Böyük Britaniyada qeydə alınıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, son zamanlar dünya üzrə virusa yoluxma sayında müşahidə olunan artım, əsasən, "Omikron" ştamının mutasiya olunan yeni növləri hesabına baş verib. COVID-19-un təkamülünün istiqaməti və yeni ştamların xüsusiyyətləri tam müəyyən olunmayıb.

→ 7




## 56 ölkə, 4200 atlet

→ 6

## Ermənistan ordusunda xaos davam edir

Ermənistanda bütün sahələr üzrə özünü getdikcə daha qabarıq formada büruzə verən tənəzzül ordusunda da acınacaqlı durumun formalaşması ilə müşayiət olunur. Orduda korrupsiya, rüşvətxorluq, özbaşınalıq geniş vüsət alıb. Ümumiyyətlə, cəmiyyətdə olan neqativ tendensiyalar ordunu da bürüyüb. Artıq erməni ordusu maddi-texniki, şəxsi heyətlə təminat baxımından əvvəlki dövrlərlə müqayisədə indi daha ciddi çətinliklər yaşayır.

O da vurğulanır ki, Ermənistan Müdafiə Nazirliyi heç də bütün insidentlər haqda məlumat vermir, bəzi hallar gizli saxlanılır. Paşinyan hakimiyyəti üçün ciddi problemə çevrilən məsələlərdən biri də qeyri-döyüş şəraitində həyatını itirən əsgərlərlə bağlıdır. Belə əsgərlərin valideynləri hakimiyyətin bu məsələyə etinasızlığından cana doyduqlarını bildirir və ölkə rəhbərliyinin indiyə qədər onları aldatdıqlarını bəyan edirlər.

Bu günlərdə Ermənistanın "N" saylı hərbi hissəsinin müqavilələli hərbi qulluqçusu Arşaluys Ovannisyan (1976-cı il təvəllüdlü) naməlum şəraitdə ölüb.

→ 7



# Cənubi Qafqaza yenilik gətirən layihə

## Dövlətimiz vətəndaşlarını daha rahat və təhlükəsiz həyatla təmin edir

İki ilə yaxındır ki, Azərbaycanın həyatında yeni bir dövr başlayıb. İşğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Görülən işlərin miqyasına diqqət yetirdikdə Azərbaycanın iqtisadi imkanlarının aydın mənzərəsini göz önündə canlandırmaq mümkündür. Prezident İlham Əliyevin rəhbərliyi altında ərazi bütövlüyümüz bərqərar edildi və bu gün belə nəhəng layihələr həyata keçirilərək azad edilmiş torpaqların çiçəklənən bir diyara çevrilməsi istiqamətində qətiyyətli və sürətli işlər görülür. Artıq doğma Qarabağda infrastruktur formalaşır. Mərhələ-mərhələ bütün hədəflərə nail olunur.

### Böyük qayıdışın ilk ünvanı

İşğaldan azad olunmuş ərazilər "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulur. Ölkəmizin müstəqil iqtisadiyyatının gücü hesabına Böyük qayıdış prosesinə start verilib və ilk olaraq zəngilanlıların doğma torpaqlarına köçürülməsi baş tutub. Ötən il aprelin 19-da isə Azərbaycan Prezidenti "ağıllı şəhər" (smart sity) və "ağıllı kənd" (smart village) konsepsiyasının hazırlanması haqqında" sərəncam imzalayıb. Qeyd edək ki, Azərbaycanın artıq "ağıllı kənd" layihəsi ilə bağlı təcrübəsi mövcuddur. Belə ki, hələ 2018-ci ilin noyabrında Qax rayonuna səfəri zamanı Prezident İlham Əliyevə ilk dəfə olaraq ölkədə yaradılması planlaşdırılan "ağıllı kənd" layihəsi təqdim edilib.

Dövlət başçısı öz çıxışlarında dəfələrlə bildirib ki, azad olunmuş ərazilər "yaşıl enerji" zonasına çevriləcək. İşğaldan azad olunmuş ərazilərin dövlət başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə bərpa edilməsi və yenidən qurulması, xüsusən də bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması həmin bölgələrimizin ən yüksək standartlara cavab verən müasir yaşayış məkanlarına çevriləcəyindən xəbər verir.

### Ağalı kəndində "ağıllı" texnologiyalar tətbiq olunur

İlk "ağıllı kənd" layihəsi Zəngilan rayonunun Ağalı kəndində həyata keçdi. İşğaldan azad olunmuş ərazilərə ilk məskunlaşma Ağalı "ağıllı kəndi"ndə baş tutdu. Regionda bu cür layihələr Azərbaycana dost ölkələr olan Türkiyə, İsrail, İtaliya və digər dövlətlərin şirkətlərinin iştirakı ilə sürətlə və yüksək texnologiyaların tətbiqi ilə həyata keçirilir. Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi işlər bu konsepsiyanın tərkib hissələridir. Ağalı kəndi Qafqazda müasir standartlara cavab verən ilk kənd kimi tarixə düşüb. Beynəlxalq təcrübədə "smart village" dedikdə kənd əhalisinin qarşılaşdığı əsas problemlərin həlli və daha da önəmli olan kənd ərazilərində yeni iqtisadi imkanların yaradılması başa düşülür. Ağalı kəndində 200 fərdi yaşayış evi, 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb və 60 yerlik uşaq bağçası tikilib. Kəndin enerjiyə olan tələbatı alternativ enerji mənbələrindən əldə olunacaq. Ağalı kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub. Məqsəd kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışını təmin etməkdir. İnsanların "ASAN" və ya DOST xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayacaq. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək. Vətəndaş birbaşa videobağlantı ilə DOST mərkəzlərinin sosial agentinə müraciət edəcək və müraciəti yerindəcə həll olunacaq. Bundan başqa, kənd ərazisində yeni intensiv bağlar salınır. Yaşayış məntəqəsində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb.

Prezident İlham Əliyev kənd sakinləri ilə görüşündə dediyi kimi, "bir o qalıb ki, 30 ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, burada rahat yaşasınlar, müzəffər xalq kimi əbədi yaşasınlar. Belə də olacaq. Bundan sonra həm Zəngilan rayonunda, həm digər rayonlarda, indi baş planları təsdiq edilmiş rayonlarda inşaat işləri daha sürətlə gedəcək". "Ağıllı kənd" texnologiyası rəqəmsallaşma, kənd sərhədlərindən daha böyük düşünmə, kəndlə ətraf bölgələr arasında yeni əməkdaşlıq formatı deməkdir. Bu cür layihələr dünyanın müxtəlif ölkələrində reallaşdırılır və məqsədi kənd sakinlərinin həyatını yüngülləşdirmək və yaşayış səviyyəsini yüksəltməkdir.

### Rəqəmsal dünyanın şəhəri

"Ağıllı şəhər" təhlükəsiz şəhərdir. Bu, birbaşa onunla bağlıdır ki, burada texnologiyalardan ciddi şəkildə istifadə olunur. Bu, texnoloji olaraq cinayətlərin üstünün daha tez və qısa zamanda açılmasına imkan yaradır və şəhəri təhlükəsiz şəhərə çevirir. Ətraf mühitin qorunması baxımından, alternativ enerji mənbələrinin imkanlarından "ağıllı şəhər"lərdə istifadə olunur. Həmçinin "ağıllı şəhər" nəqliyyatın inkişaf etməsinə də imkan verir. Bu tip şəhərlər ağıllı cihazlardan əldə edilən məlumatlarla təmin olunur. Bu ağıllı cihazlar telefonlar, ya da avtomobillərdə olan sensorlar belə ola bilər. Bu cihazlar kifayət qədər məlumat təmin etdikdə isə, məsul şəxslər şəhərin ehtiyaclarını müəyyən edə və lazımlı infrastruktur işlərini başlada bilərlər.

Bu layihələrin həyata keçirilməsi birinci növbədə ölkəmizin iqtisadi gücünün və potensialının nümayişidir. Bu layihə hər şeydən öncə həmin ərazilərdə müasir rəqəmsal texnologiyaların və innovasiyaların tətbiq olunması əsasında sosial-iqtisadi xidmət sferalarının qurulmasıdır. Ona görə bu qədər böyük tutuma malik olan layihənin həyata keçirilməsi dövlətdən böyük iqtisadi-maliyyə resursları tələb edir ki, Azərbaycan da buna qadirdir. Hər bir layihənin məqsədi orada yaşayan insanların iqtisadi gəlirlərinin artmasına daha səmərəli şərait yaratmaqdır. "Ağıllı kənd" layihəsi, əslində, bu istiqamətdə geniş imkanlar açır. Məsələn, bu gün ölkəmizdə kənd təsərrüfatı sistemində ən böyük problemlərdən biri istehsal olunan məhsulların satış bazarının təşkili ilə bağlıdır. Bu layihələrin reallaşması sözügedən problemlərin aradan qaldırılmasına da yardımçı olacaq.

"Ağıllı şəhər", "ağıllı kənd" layihələrinin həyata keçirilməsi dövrün tələbi və inkişafın göstəricisidir. İnsanın müasirləşən və yeniləşən həyat tərzini özündə əks etdirən bu tipli layihələr bilavasitə beş nəcib məqsədə - normal, mənalı yaşayışa, müasir, elmi əsaslarla idarə olunan istehsala, nümunəvi sosial xidmətlərə, ağıllı, düşünülmüş kənd təsərrüfatına, alternativ enerji mənbələrindən istifadəyə əsaslanır. Həmin mütərəqqi layihələrin hazırlanması və həyata keçirilməsi bilavasitə Azərbaycan vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılmasına, onların xoşbəxt həyatına hesablanmışdır və ölkənin inkişafına, tanınmasına xidmət edir.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***



# Türk dövlətlərinin prokurorları Bakıda toplaşıblar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla və nüfuzlu təşkilatlarla səmərəli əməkdaşlığını həyata keçirməklə yanaşı, çoxsaylı qlobal və regional təşəbbüslərdə fəal iştirak edir.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, regionumuzda baş verən çağırışlara və təhdidlərə qarşı mübarizədə, mövcud potensialın inkişafında və qarşılıqlı təcrübə mübadiləsində tərəfdaş ölkələrin prokurorluq orqanları ilə əlaqələrin yeni formatda təşkili cinayətkarlığa qarşı mübarizə üzrə birgə səylərin gücləndirilməsinə və daha effektiv təşkili üçün mühüm amil hesab edilir.

2021-ci ilin noyabrın 1-də Bakıda təsis edilmiş Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurası çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə cari ilin avqustun 8-də "Prokurorluq orqanları arasında beynəlxalq əməkdaşlıq, cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi: mövcud vəziyyət və çağırışlar" mövzusunda beynəlxalq seminar keçirilib.

Seminarda Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğız Respublikalarının baş prokurorluqlarının nümayəndə heyətləri, həmçinin Türk Dövlətləri Təşkilatının baş katibinin müavini iştirak edib.

Qonaqlarla görüşən Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev böyük coğrafiyanı əhatə edən türk dünyasının hüquq-mühafizə orqanları arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmaqla, keçiriləcək seminarın regional təhlükəsizlik, sülhə və sabitliyə yeni, daha təhlükəli təhdidlər üçün çağırışlara tutarlı cavab verməyə xidmət edəcəyini, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirib.

Seminarın açılış mərasimində çıxış edən baş prokurorun birinci müavini Elçin Məmmədov və Türk Dövlətləri Təşkilatının baş katibinin müavini Qismət Gözəlov şuraya üzv dövlətlərin prokurorluq orqanlarının gənc əməkdaşları üçün keçirilən seminarda ölkələrimizin prokurorluq və hüquq-mühafizə orqanları arasındakı münasibətlərin genişlənməsinə öz müsbət təsirini göstərəcəyini vurğulayıb.

Bakı Dövlət Universitetinin dosenti Sevinc Ruintən türk dövlətlərinin tarixi, qədim dövlətçilik ənənələri, milli-mənəvi dəyərləri haqqında mühazirə ilə çıxış edib.

Daha sonra seminar prokurorların təqdimat və çıxışları ilə işini davam etdirib, səmərəli fikir mübadiləsi aparılıb.

Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurasına üzv dövlətlərin prokurorlarının ölkəmizə səfəri davam edir.

# Azərbaycan Prokurorluğu xarici tərəfdaşlarla əyani təcrübə mübadiləsi formatında qurulmuş əməkdaşlığını davam etdirir

**Hüquq-Mühafizə Orqanlarının İşçiləri üçün Avropa İttifaqının Təlimlər Agentliyinin (CEPOL) proqramının formatına uyğun olaraq, Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin nümayəndəsinin ölkəmizin hüquq sistemi ilə tanışlıq səfərinin ardınca, bu ilin iyulunda qarşılıqlı olaraq Azərbaycan Prokurorluğu nümayəndəsinin də Litva Respublikasının tərəfdaş ölkəyə analoji təcrübə səfəri baş tutub.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, beşgünlük təcrübə mübadiləsində iştirak edən Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və İnformasiya Təminatı İdarəsinin böyük prokuroru Pirayə Səmədzadə-Əliyeva Litva Respublikasının Xüsusi İstintaq Xidməti, Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi yanında Maliyyə Cinayətlərinin Araşdırılması Xidməti, Kriminal Polis Bürosu və digər dövlət orqanlarının müsbət təcrübələrini öyrənib.

Eləcə də cinayət yolu ilə əldə edilən vəsaitlərin leqallaşdırılmasına qarşı mübarizənin mühüm əhəmiyyəti nəzərə alınmaqla, təlim proqramında bu sahədə aparılmış son institusional dəyişikliklərə də xüsusi yer verilib, bu məqsədlə əməkdaşımız 2021-ci ildə yaradılmış Çirkli Pulların Yuyulmasına qarşı Mübarizə Mərkəzinin fəaliyyəti ilə yerində tanış edilib.

Litva Respublikasının Maliyyə Nazirliyi, Mərkəzi Bankı və kommersiya bankları tərəfindən birgə təsis edilmiş həmin mərkəz çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində dövlət və özəl sektorun səylərini birləşdirməklə, bu sahədə mərkəzləşdirilmiş informasiya mübadiləsi platforması rolunu oynamaqdadır.

Proqram çərçivəsində nümayəndəmizə həmin qurumların təcrübəli mütəxəssisləri tərəfindən korrupsiya və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına qarşı mübarizə, bu qəbildən olan cinayət növləri üzrə ilkin araşdırma və istintaqın aparılmasının müasir metodları, əmlakın bərpası fəaliyyəti ilə əlaqədar tətbiq edilən yeni yanaşmalar, beynəlxalq əməkdaşlıq əlaqələri, habelə tərəfdaş ölkənin qanunvericilik sisteminin yenilikləri barədə geniş təqdimatlar olunub, səlahiyyətli dövlət təsisatlarının elmi-texniki imkanları əyani formada nümayiş etdirilib.

# Bir neçə media nümayəndəsinə xəbərdarlıq edilib

**Son günlər Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması ilə əlaqədar adekvat cavab tədbirləri görülür.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ümumilikdə Azərbaycan mediası baş verən hadisələrə təmkinlə yanaşır, məsələnin əhəmiyyətini və həssaslıq dərəcəsini nəzərə alır, fəaliyyətini müvafiq qanunvericiliyin tələbləri əsasında qurur. Bununla yanaşı, bəzi hallarda sosial şəbəkə istifadəçiləri tərəfindən qanun və ədalət prinsipinə söykənən bu cür tədbirlərə kölgə salmaq, Azərbaycan əsgərlərinin həyatı təhdidlə üzləşdiyi halda həmin təhdidlərə cavab olaraq hərbi əməliyyatların keçirilməsinə qarşı çıxmaq, yalan məlumat yaymaq, saxta və ya köhnə görüntülər paylaşmaq, heç bir əsas olmadan onları aktuallaşdırmaq cəhdləri müşahidə olunur. Təəssüflə qeyd edilməlidir ki, xoş niyyət daşımayan həmin cəhdlər informasiya azadlığı, kontekstdən çıxarılmış tarixi sitatlar və saxta pasifist baxışlarla pərdələnir.

Azərbaycan Respublikasının Baş Prokurorluğuna daxil olan məlumata əsasən, yuxarıda qeyd olunan hallara yol vermiş Bakı şəhər sakinləri Rüstəm İsmayılbəyli, Fərid Hüseynov, Goranboy rayon sakini Elmar Məmmədov və Mingəçevir şəhər sakini Gülay Eyvazova prokurorluğa dəvət olunub və qanunun tələbləri onların diqqətinə çatdırılıb.

İctimai təhlükəsizliyin kütləvi şəkildə pozulması və ictimai təhlükəli nəticələrin baş verməsi təhdidini törədən yalan məlumatların yayılması "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yolverilməzdir.

"Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, ölkənin müdafiə qabiliyyətinin zəiflədilməsinə yönəlmiş addımlar dövlətimiz üçün təhdid hesab olunur və buna xidmət edən istənilən hərəkətlərin vaxtında qarşısı alınmalıdır.

Qeyd olunanları nəzərə alaraq, həmin şəxslərlə aparılmış söhbət zamanı onlara əməllərinin ictimai təhlükəli nəticələri izah edilib və "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununun 22-ci maddəsinə əsasən prokuror təsir tədbiri aktı olan xəbərdarlıq elan edilib.

# Nazir Ceyhun Bayramov Ankarada keçirilən "Müdrik və mərhəmətli türk diplomatiyası" mövzusunda səfirlər konfransında çıxış edib

Türkiyə Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Ankarada "2023- Müdrik və mərhəmətli türk diplomatiyası" mövzusunda XIII Səfirlər Konfransı davam edir.

AZƏRTAC xəbər verir ki, giriş çıxışında Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" kəlamını xatırladan nazir Mövlud Çavuşoğlu deyib ki, müttəfiqlik münasibətlərimiz və qardaşlıq bağlarımız müstəsnadır. Dünyada bunun bənzəri yoxdur. Ayrıca, tarixi çətin dövrləri hər iki, yəni bir millət olan Azərbaycan və Türkiyə xalqlarını bir-birinə daha da yaxınlaşdırıb. Bir əsr əvvəl Azərbaycan türkləri milli mübarizəmizə dəstək üçün əlində, ovcunda nə var isə qardaş köməyi deyərək Türkiyəyə göndərdi. Yəni qardaşlarımız Qurtuluş savaşımızda bizləri tək qoymadılar. Qardaş köməyini 2020-ci ildə də gördük. Can Azərbaycanın Qarabağın işğaldan azad edilməsinə şahid olduq. Amma eyni zamanda bu səfər bütün Türkiyə xalqı Can Azərbaycanın yanında oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi ilə əlaqələrimizin müttəfiqlik səviyyəsinə yüksəldiyini diqqətə çatdıran nazir Mövlud Çavuşoğlu deyib ki, müttəfiqlik, sadəcə, könüldə olmaz, bunu gerçəkləşdirən amillər var: "Bu birliyə vəsilə olan ən vacib səbəb Can Azərbaycanın işğal altındakı torpaqlarının işğaldan azad edilməsi, yəni Qarabağ Zəfəri oldu. Qarabağ Zəfəri ilə türk dünyasının özünə olan güvəni daha da artdı və bu Bəyannamədən sonra İstanbuldakı Zirvə görüşü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adını Türk Dövlətləri Təşkilatı olaraq dəyişdirdik. Bundan sonra təşkilata rəhbərlik Azərbaycandan Türkiyəyə keçdi. Azərbaycan da məlum pandemiyanın çətinliklərinə və Vətən müharibəsindən irəli gələn son dərəcə ağır şərtlərinə baxmayaraq, təşkilatımıza uğurla sədrlik etdi. İkitərəfli əməkdaşlıqlarımızla yanaşı, bölgənin sülh və sabitliyi üçün də işləyirik, fikirlər irəli sürürük. Məlum olduğu kimi, üçlü-dördlü formatlarda mexanizmlərimiz var. Bunlar Türkiyə ilə Azərbaycanın mərkəzdə olduğu mexanizmlərdir".

Münaqişə və qarşıdurmaların heç kəs üçün faydalı olmadığını diqqətə çatdıran nazir Mövlud Çavuşoğlu deyib ki, Ukrayna böhranı bizim bölgəmizdə ölkələrimizin əhəmiyyətini daha da artırdı: "Biz hər zaman bölgəmizdə sülh uğrunda işlər aparmışıq. Amma bu gün dünyanın ehtiyacı olan xüsusilə enerji və qida böhranının yaşandığı bir dövrdə nəqliyyat və ticarət kimi mövzularda bütün dünyaya kömək göstərmək istəyirik. Bakıda Türkiyə, Azərbaycan, Qazaxıstan xarici işlər və nəqliyyat nazirlərinin toplantısını həyata keçirdik. Bunun ardından ötən həftə Özbəkistanda Türkiyə, Azərbaycan, Özbəkistan xarici işlər nazirləri, ticarət və nəqliyyat nazirləri toplandılar. Bu təşəbbüsü də Azərbaycan tərəfi irəli sürmüşdü".

Böyük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni vəziyyəti dəyərləndirən natiq bildirib ki, Ermənistan ilə ayrı-ayrılıqda həyata keçirdiyimiz normallaşma prosesini də paralel aparırıq və bir-birimizə hər mərhələdə məlumat veririk, fikir mübadiləsi aparırıq və yeri gəldiyində kritik nöqtələrdə necə addım atacağımızla bağlı bərabər qərar veririk. Açılış nitqimdə də qeyd etdiyim kimi, Ermənistanı törətdiyi təxribatlardan əl çəkməsi ilə bağlı bir daha xəbərdar edirik. Bölgədə sabitlik və sülh üçün Türkiyə və Azərbaycan səmimidir. Bu normallaşma Ermənistanın da xeyrinədir. Sadəcə, xoş sözlərlə olmaz, konkret addımlar atmalı və anlaşmaları həyata keçirməliyik. Türkiyə hər zaman Can Azərbaycanın yanındadır. Azərbaycan da hər zaman Türkiyənin yanındadır. Azərbaycan xüsusilə Türkiyənin olmadığı platformalarda hər zaman Türkiyənin haqlarını ən az bizim qədər müdafiə edir. Həqiqətən, çətin dövrdən keçdik, sözün əsl mənasında, alovdan köynək geyindik. Bu dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin liderliyi ilə Azərbaycan tarix kitablarında yer alacaq çox vacib uğurlara imza atdı.

Azərbaycan-Türkiyə müttəfiqlik əlaqələrini yüksək dəyərləndirən nazir Ceyhun Bayramov diqqətə çatdırıb ki, etnik, mədəni və tarixi tellərlə bağlı qardaşlıq və dostluq münasibətlərimiz Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyində qarşılıqlı maraqlarımıza xidmət edən gerçək addımlarla dəstəklənir. Xarici siyasət və diplomatiya sahəsində də əlaqələrimiz Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət!" ideyası və Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri - bizim kədərimiz, sevinci - bizim sevincimizdir" tarixi kəlamı çərçivəsində inkişaf edir. Bənzərsiz əlaqələrimiz artıq Türkiyə diplomatlarının Azərbaycanın maraqlarını, Azərbaycan diplomatlarının Türkiyənin maraqlarını fərqli beynəlxalq platformalarda öz dövlət maraqları kimi qoruması və təşviqi səviyyəsinə yüksəlmişdir. Bunun ən gözəl örnəkləri dövlət başçılarımız tərəfindən həyata keçirilir. 2014-cü ildə Praqada keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramı zamanı erməni iftira və hücumlarına münasibətdə Prezident İlham Əliyevin "Türkiyə burada yoxdursa, mən varam, biz varıq!" sözləri, Prezident Rəcəb Tayyib Ərdoğanın hər zaman, xüsusilə də 44 günlük Vətən savaşı zamanı vurğuladığı "Azərbaycan bizim qırmızı cizgimizdir!" ifadəsi diplomatiya tarixində bənzərsiz əlaqələrin təzahürüdür. Bu mənada ikitərəfli münasibətlərimizin yüksəlişinə fayda gətirən dəyərli məsləkdaşlarımıza təşəkkür etmək istəyirəm. Münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir. Bununla birlikdə hələ gedəcək yolumuz, çatacağımız çox hədəflərimiz var ki, bu yolda da hər birimizə uğurlar diləyirəm.




Son 30 ildə beynəlxalq münasibətlər sistemində ən sürətli və ciddi dəyişikliklər baş verdiyini xatırladan Azərbaycan baş diplomatiya təşkilatının rəhbəri diqqətə çatdırıb ki, inkişaf və tənəzzül, inteqrasiya və özünütəcrid, bolluq ilə səfalət, əməkdaşlıq və rəqabət yan-yana irəliləyir. Bir tərəfdə təkamül, texnoloji və iqtisadi inkişaf, digər tərəfdə isə savaşlar, xəstəliklər və aclıq hökm sürür. Bir tərəfdən əməkdaşlığın sayı artarkən, digər tərəfdən deinteqrasiya və özünütəcrid tendensiyaları davam edir. Bütün bu proseslər, əslində, beynəlxalq sistemdəki çalxalanma, məmnuniyyətsizlik və inamsızlıqları aydın formada göstərir. Eyni zamanda mövcud beynəlxalq sistemin rəngarəngliyini ortaya çıxarır, işbirliyinin nə qədər əhəmiyyətli olduğunu isbat edir. Beynəlxalq sistemin bütün üzvlərinə vahid ölçüdə təsir edən bu dəyişikliklər və bəlkə də "sistematik böhran" dövrünü bəsləyən, fikir ayrılığı və beynəlxalq ədalətsizliyi artıran bir çox amillər vardır ki, onların bəzilərinə toxunmaq istərdim. İlk olaraq təəssüflə qeyd edim ki, son illərdə beynəlxalq hüquq və normaların həyata keçməsində ciddi çatışmazlıqlar müşahidə edirik. Beynəlxalq hüquq və normalara, qəbul olunan qərarlara zidd olaraq 30 il əraziləri işğal altında tutulan bir dövlətin təmsilçisi kimi deyə bilərəm ki, hüququn tətbiqindəki zəifliklər, əslində, mövcud beynəlxalq sistemə etimadı sarsıdan birinci və ən əsas amildir. Bu gün, sadəcə, bəzi güclərin maraqlarına xidmət edən, "selektiv tətbiqlə" beynəlxalq hüququn icrası, ayrıseçkilik ciddi narahatlıq doğurur. Bunun fəsadları, sadəcə, haqları pozulan xalqlar deyil, böyük güclər də daxil olmaqla bütün sistem tərəfindən hiss edilir. Bu xüsusda beynəlxalq hüquq və ədalətə inamı bərpa edərək beynəlxalq sistemdəki mövcud mexanizmlərin təsirinin artırılması, sistematik və struktur dəyişikliyinin astanasında olduğumuz bu dövrdə önəmli addımdır.

Soyuq savaşdan sonra artan qloballaşma tendensiyası müsbət proseslərlə yanaşı, "təhdid" konsepsiyasını yenidən genişləndirib şaxələndirdiyini ifadə edən nazir Ceyhun Bayramov bildirib ki, hazırda "təhdid" termini, sadəcə, milli dövlətlər arasındakı münaqişələrlə məhdudlaşmayaraq, beynəlxalq sərhədləri tanımayan transmilli və beynəlxalq təhdidləri də əhatə edir. Hər kəsə aydındır ki, artıq heç bir dövlət inkişaf edən və yeni növ təhdidlərlə təkbaşına mübarizə aparmaq iqtidarında deyil. Təsadüfi deyil ki, beynəlxalq hüququn təməlini təşkil edən ərazi bütövlüyü, suverenlik və müstəqillik bir-birilərinin daxili işlərinə qarışmamaq və digər prinsiplərə bütün ölkələr tərəfindən eyni məsuliyyətlə yanaşılsaydı, bu gün münaqişələrin və ədalətsizliklərin bir çoxunun qarşısı alınardı. Eyni zamanda qeyd olunmalıdır ki, iqlim dəyişikliyi və qlobal istiləşmə, pandemiya və qida böhranı mövcud dünyamızın reallıqları arasındadır. Deyə bilərik ki, həm iqlim dəyişikliyi, həm də hərbi münaqişələr və onların iqtisadi nəticələri bəşəriyyəti qida qıtlığı kimi qorxunc ssenarilərlə qarşı-qarşıya qoyur. Təsadüfi deyil ki, bu gün Ukrayna ətrafında yaşanan hadisələr ciddi narahatlıq doğurur və bir daha beynəlxalq sistemin bütün aktorlarına xatırladır ki, dünyanın istənilən bir yerində baş verənlər hamımıza təsir göstərir. Mövcud beynəlxalq sistemdə, xüsusilə də böhran dövründə artan sosial ədalətsizlik və insani dəyərlərin heçə sayılması bu gün hər birimizi narahat edən digər faktordur. Bunun ən bariz nümunəsini bəşəriyyətimiz üçün ciddi sınaq olan COVID-19-un pandemiyası dövründə müşahidə etdik. Zəngin dövlətlərin bəzilərinin ehtiyaclarından daha artıq vaksin tədarükü ilə digərlərini dərmana sahib olmaqdan məhrum etməsi və tətbiq olunan "vaksin millətçiliyi" hər kəsdə beynəlxalq sistemdəki ədalət ilə bağlı suallar yaratmışdır. Pandemiya, əslində, bizə bir daha həmrəylik və əməkdaşlığın əhəmiyyətini xatırlatdı. Sevinc və qürur hissi ilə vurğulamaq istərdim ki, Azərbaycan da qardaş Türkiyə kimi pandemiya dövründə həm beynəlxalq platformalardakı təşəbbüsləri, həm də fərdi dəstəyi ilə 80-dən artıq ehtiyacı olan ölkəyə maddi və humanitar yardım etmişdir. Bu günədək bütün beynəlxalq platformalarda pandemiya ilə ortaya çıxan fors-major durumda ədalətli, bərabər və humanitar yanaşmanın önəmli olduğunu bəyan etmişik. Bu səbəbdən də konfransımızın mövzusuna uyğun olaraq qeyd etmək istərdim ki, dəyişən və özündə ciddi çağırışları tələb edən mövcud beynəlxalq sistemdə "müdrik və mərhəmətli diplomatiyanın" əhəmiyyəti danılmazdır.

Beynəlxalq ədalətin təsis olunmasında bu gün qardaş Türkiyənin etdiklərinin bütün dünya üçün örnək olduğunu diqqətə çatdıran nazir Ceyhun Bayramov deyib: "500 illik bir mirasa sahib olan türk diplomatiyasının qazandığı uğurlar Türkiyənin beynəlxalq aktor kimi rolunu gündən-günə artırır. Dünyanın ən geniş 5-ci diplomatik təsisatına malik diplomatik təmsilçilikləriniz bu gün Türkiyənin gücünə güc qatır. Əminik ki, Türkiyənin olmadığı bir platformada Azərbaycanın tətbiq etdiyi kimi, bizim olmadığımız bir yerdə səsimizin, sözümüzün eşidilməsini qardaş Türkiyənin diplomatları həyata keçirirlər. Türkiyə bir çox digər sahələrdə olduğu kimi, həm də diplomatiyada yeniliklərinin ortaya çıxması və tətbiqində qabaqcıl ölkələrdən birinə çevrilmişdir. Antalya Diplomatiya Forumundakı uğurlarınız, dijital diplomatiyadakı addımlarınızı yaxından izləyir, təcrübədən məmnuniyyətlə istifadə edirik. Türkiyənin diplomatiyada qabaqcıl və mərkəzi ölkəyə çevrilməsini sevinc və fəxrlə qarşılayır, uğurlarınızı öz uğurumuz kimi qəbul edirik. Qazi Mustafa Kamal Atatürkün "Yurtda sülh, cahanda sülh!" kəlamı, Prezident Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür!" ifadəsi Türkiyə diplomatiyasının kökündə hər zaman barış və ədalətin dayandığını bir daha ortaya qoymuşdur. Elə bu səbəbdən də təsadüfi deyil ki, qardaş ölkəmiz qlobal güclərin hesablaşdığı bir aktora çevrilmişdir. Türkiyə bu gün dünyanın bir çox bölgəsindəki münaqişələrin həllinə etibar edilir və vasitəçi kimi dəvət olunur. Suriya, Liviya, Ukrayna böhranlarında Türkiyənin beynəlxalq hüquq və insani dəyərlərə əsaslanan vasitəçiliyi, prinsipiallığı türk diplomatiyasının dərinliyi, insan və ədaləti hər zaman ön planda saxlayan dinamikasını nümayiş etdirmişdir".

Torpaqlarımızın işğaldan azad edilməsi zamanı Türkiyənin ölkəmizə verdiyi siyasi və diplomatik dəstəyin, sadəcə, qardaşlıq münasibətlərinin təzahürü deyil, eyni zamanda Türkiyənin doğrunun, haqqın və ədalətin yanında dik durması kimi tarixdə öz yerini qazandığını ifadə edən nazir Ceyhun Bayramov bildirib ki, bu dövrdə bütün beynəlxalq təzyiq və təhdidlərə baxmayaraq, türk diplomatları azərbaycanlı məsləkdaşları ilə birlikdə bütün platformalarda çiyin-çiyinə çalışaraq, haqlı sözümüzün dünyada eşidilməsi üçün ciddi mübarizə apardılar: "Başda Prezident Rəcəb Tayyib Ərdoğan və xarici işlər naziri Mövlud Çavuşoğlu olmaqla, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə beynəlxalq ədalətin bərqərar olması yolundakı fəaliyyətlərinə dəstək verən bütün türk diplomatlarına təşəkkürümü bildirir, bundan sonra da məhsuldar fəaliyyətlərimizdə birlikdə yaşamağı arzu edirəm. Eyni zamanda bu gün burada olmağımdan istifadə edərək, ASALA və digər erməni terror təşkilatlarının törətdikləri terror aktları nəticəsində şəhadətə yüksələn türk diplomatları və ailə üzvlərini də rəhmətlə anmaq istəyirəm. Türk diplomatlarımıza qarşı törədilən bu terror aktları erməni terrorizminin hələ XX yüzilliyin 70-80-ci illərində türk etnik kimliyinə olan nifrətini isbat edərək, əslində, sonrakı onilliklərdə Azərbaycanın başına gələn faciələrin xəbərçisi olmuşdur. Düşünürəm ki, nifrət üzərində qurulan bir ideologiya ən böyük zərəri onun daşıyıcısına vurur. Bundan imtina etmək həm regional inteqrasiyaya, həm də erməni xalqının rifahına xidmət edə bilər. Biz, Azərbaycan və Türkiyə olaraq iradəmizi ortaya qoymuşuq və qarşı tərəfdən də adekvat addımlar gözləyirik".

# "Artilleriya atəşinin ustaları" müsabiqəsinin iştirakçıları üçün mədəni-kütləvi tədbir təşkil edilib

"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında keçiriləcək "Artilleriya atəşinin ustaları" müsabiqəsinin iştirakçıları üçün mədəni-kütləvi tədbir təşkil olunub.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirin təşkilatçıları qonaqları salamlayaraq onları ölkələrində görməkdən məmnunluqlarını bildirib, komandalara yarışlarda müvəffəqiyyətlər arzulayıblar.

Konsert proqramı iştirakçı ölkələrin nümayəndələri tərəfindən maraqla qarşılanıb.

# "Dəniz kuboku" müsabiqəsi hakimlərinin müşavirəsi keçirilib

Avqustun 8-də Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsi hakimlər komissiyasının formalaşdırılması üzrə təşkilati müşavirə keçirilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.




İştirakçı dövlətlərin nümayəndələrinin qatıldığı tədbirdə təşkilati məsələlərlə bağlı tərəflərin təklifləri dinlənilib, hakimlər heyətinin tərkibi və müsabiqənin epizodlarının icra olunacağı yerlərə baxışların keçirilmə vaxtları dəqiqləşdirilib.

Həmçinin müsabiqənin hakimləri normativ sənədlərin vəziyyətini, mükafat və cərimə ballarının hesablanması prinsiplərini müzakirə ediblər.

Qeyd edək ki, Azərbaycan, Rusiya, İran və Qazaxıstan hərbi dənizçilərinin iştirak etdiyi "Dəniz kuboku" müsabiqəsi bu il avqustun 13-dən 27-dək keçiriləcək.

# Pənahəli xanın nəslinin nümayəndəsi Ağdamda olub

Qarabağ xanlığının banisi Pənahəli xanın nəslinin nümayəndəsi Məhəmmədəli Əkbərov Ağdamda olub.

AZƏRTAC xəbər verir ki, Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə Şuşada keçirilən Diaspor Gənclərinin III Yay Düşərgəsində iştirak edən Məhəmmədəli Əkbərov Ağdamda əvvəlcə İmarət kompleksinə gəlib. O, burada xan sarayını, Qarabağ xanlarının türbələrini ziyarət edib.







Məhəmmədəli Əkbərov jurnalistlərə müsahibəsində İspaniyada Qranada şəhərində anadan olduğunu bildirib. Sonradan valideynlərinin Madridə köçdüyünü qeyd edən M.Əkbərov hazırda bu şəhərdə kriminalistika fakültəsinin 3-cü kursunda təhsil aldığını deyib. Bildirib ki, İspaniyada doğulub, orada yaşasa da, hər zaman evlərində doğma dilimizdə danışıblar: "Mən uşaq olandan valideynlərim hər zaman mənə Qarabağ, Şuşa haqqında çox danışıblar. Odur ki, mən Qarabağı görməsəm belə doğma torpaqlarımı sevmişəm. Ona görə bura gəldiyim üçün özümü xoşbəxt hiss edirəm".

Pənahəli xanın nəslinin davamçısı Şuşada Diaspor Gənclərinin III Yay Düşərgəsinin təşkilinə görə Heydər Əliyev Fonduna və Diasporla İş üzrə Dövlət Komitəsinə təşəkkürünü ifadə edib. "Şuşada olmaq mənim üçün böyük şərəf oldu, sevinc və qürur hissləri yaşadım. Eyni zamanda kədərlənib kövrək hisslər yaşadım. Dağıdılan abidələr, xarabalığa çevrilmiş evləri gördüm. Orada indi insanların xatirələri yaşayır. Yolboyu hərəkət etdikcə bu yerləri azad edən şəhidlərimizin fotolarını gördüm, çox duyğulandım. Allah bütün şəhidlərimizə rəhmət eləsin! İnşallah, bərpa işləri başa çatdıqdan sonra hər kəsin öz yurdunda yaşamasını düşündükcə adamda sevinc və fərəh dolu hisslər yaranır. Ağdama gəlməyim isə tamamilə fərqli bir hiss yaşatdı. Buraya gəlib Pənahəli xanın, onun oğlanlarının türbəsini görmək çox böyük qürurverici hissdir. Mənim valideynlərim də gəlmək istəyirlər. İnşallah ki, qısa müddətdə onlar da gələrlər. Çox istəyərdim, Qarabağda evimiz olsun, burada ailəmlə yaşayam".

Məhəmmədəli Əkbərov sonra 1751-1752-ci illərdə Pənahəli xan tərəfindən inşa edilən Şahbulaq qalasında və Ağdam Cümə məscidində olub.

# Qan tökməkdənsə, kiminsə həyatını xilas etmək daha vacibdir

## Aşura günü Bakı və rayonlarda təşkil olunan aksiyalarda böyük izdiham yaşandı

Məhərrəm ayının 10-u - Aşura günü idi. Azərbaycanda hər il olduğu kimi, bu il də həmin gün qanvermə aksiyası keçirildi. Aksiyada 18-65 yaşarası, çəkisi minimum 50 kiloqram olan sağlam şəxslər iştirak edə bilərdilər. Ötən gün bu məqsədlə əhali paytaxtda yerləşən məscid və ziyarətgahlara, həmçinin bölgələrdəki müvafiq səhiyyə müəssisələrinə yaxınlaşaraq qan verirdilər.







### 14 məntəqədə 100-dən çox tibb işçisi xidmət göstərirdi

Aksiya Bakı şəhəri üzrə Xəzər rayonu Mirmövsüm ağa ziyarətgahı, Nəsimi rayonu Göy məscidin (Əjdərbəy) mərasim zalı, Nizami rayonu "Şah Abbas", Səbail rayonu Bibiheybət məscid ziyarətgahında, Suraxanı rayonu Qaraçuxur, Yasamal rayonu Təzəpir məscidlərində, bölgələr üzrə isə Mərkəzi Qan Bankının Gəncə, Lənkəran, Sumqayıt, Mingəçevir, Şəki, Şirvan, Bərdə və Quba bölmələrində həyata keçirilirdi.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyində fəaliyyət göstərən Mərkəzi Qan Bankının tibb heyəti qanvermə aksiyalarının keçirilməsinə cəlb olunmuşdu. TƏBİB-dən verilən məlumata görə, 100-dən çox tibb işçisi aksiyanın keçirildiyi müvafiq ərazilər üzrə fəaliyyət göstərirdilər. Qanvermə saat 08:00-dan başlayaraq 18:00-dək davam edib.

### Hər kəs zəruri müayinələrdən keçirilir

Aksiyanın keçirildiyi məkanlardan biri olan Təzəpir məscidinə yollandıq. Qan verilən yerin girişində böyük izdiham var idi. İnsanlar məsciddə ziyarətlərini edəndən sonra buraya yaxınlaşırdılar. Hər kəs içəri keçib qan verməyə tələsirdi. İzdihama baxmayaraq, növbə gözlənilir, sıra ilə bura gələnlərdən bütün qaydalara riayət olunaraq qan götürülürdü.

Bütün donorlar zəruri müayinələrdən keçirilirdi. Proses qan verən şəxslə bağlı məlumatların toplanılması ilə başlanılırdı. Təzyiqi ölçülən şəxs daha sonra laborator testlərə yönləndirilirdi. Burada onun hemoqlabin dəyəri ölçülürdü. İlkin tibbi müayinədən uğurla keçənlər sonuncu mərhələdə qan verirdilər. Qan verdikdən sonra insanların hazırlanan çay və şirniyyat süfrəsində əyləşməsi üçün də şərait yaradılmışdı.

Alınan qanın standart dozası 350-400 ml təşkil edirdi. Qanlar toplandıqdan sonra infeksiyalar üzrə müayinə aparılır, təmiz qanlar hemofiliya və talassemiya xəstələrinin, eləcə də qana ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə edilir.

### Hər bir insan kiməsə kömək edəcəyini düşünürdü

Aksiyaya qoşulanlardan biri olan Vəfa Hacıyeva qeyd edir ki, 5 ildən çoxdur xəstə insanlara, qana ehtiyacı olan şəxslərə yardım etmək üçün qan verir. "Bu dəfə isə oğlumla birlikdə gəlmişəm. Ümid edirəm ki, verdiyimiz qan ehtiyacı olanlara kömək edəcək".

Elə qan verən anda yaxınlaşdığımız Qərib Adgözəlov isə söyləyir ki, səhhəti yaxşı olduğu müddətdə daim belə təşəbbüslərə qoşulur. "Xüsusilə son illərdə torpaqlarımızın müdafiəsində əvəzsiz rol oynayan əsgərlərimizə dəstək olmaq hər birimizin borcudur".

Aksiyanın keçirilməsini yüksək qiymətləndirən Kamran Hüseynov deyir ki, ehtiyac sahiblərinin, maddi vəziyyəti aşağı olan xəstə insanların bizlərin köməyinə ehtiyacı var. "Verdiyimiz qan ehtiyacı olan xəstələrə bizdən bir pay olsun. Bu zaman yaxşılıq əsl məramına çatar".

### 1 vahid qandan 3 insan faydalana bilir

Qanvermə məntəqəsinə gələrək açıqlama verən Mərkəzi Qan Bankının müdiri Qumral Ələkbərova bildirdi ki, Bakı şəhərində saat 08:00-dan 18:00-a qədər 1295 nəfər, regionlarda isə 598 nəfər qan verib. "Qana hər zaman ehtiyac var. Çünki qanın istifadə müddəti 42 gündür. Buna görə də, askiyalardan əlavə mütəmadi olaraq könüllü donorlardan qanların alınması bizim əsas istiqamətimizdir".

Q.Ələkbərova onu da nəzərə çatdırdı ki, qanın heç bir əvəzləyicisi yoxdur. Onun mənbəyi yanlız insandır. Alınan 1 vahid qandan 3 fərqli qan komponentin hazırlanması 3 insanın qanla təmin edilməsinə yardımçı olur.

Deyilənlərdən bir daha belə aksiyaların əhəmiyyəti, insan həyatındakı rolu aydın olur. Daim sağlamlığımızın qeydinə qalaraq, başqalarına kömək etməkdən də çəkinməməliyik. Məhz ötən gün məscid və tibb məntəqələrində verilən qanlar neçə-neçə insanın yenidən həyata dönməsinə vəsilə olacaq.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Milli-mənəvi dəyərlərimiz varlığımız, milli kimliyimizdir

Hər bir xalqın milli-mənəvi dəyərləri, zəngin mədəniyyəti, özünəməxsus adət-ənənələri onun tarixi qədimliyinin əsas göstəricilərindəndir. Əsrdən-əsrə keçən, nəsildən-nəslə ötürülən bu dəyərləri qoruyub saxlamaq, yaşadıb inkişaf etdirmək hər kəsin doğma xalqı qarşısında mənəvi borcu, müqəddəs vəzifəsidir.

Təqdirəlayiqdir ki, Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə, qədim adət-ənənələrinə sadiqdir. Xalqımızın keçib gəldiyi tarixi yol, minilliklərlə formalaşmış bir çox ənənələrimiz bu gün də davam etdirilir.

### Azərbaycan xalqı milli-mənəvi dəyərlərinin işığında yaşayır

Əsrlər boyu azərbaycanlılar dünya xalqları arasında qədim milli-mənəvi dəyərləri ilə tanınıblar. Xalqımız həssaslıqla yanaşdığı, qoruyub saxladığı, yaşatdığı və təbliğ etdiyi milli xüsusiyyətləri, adət-ənənələri ilə dünya mədəni irsində özünəməxsus yer tutur.

Uzun illər aparılan araşdırmalar, tədqiqatlar Azərbaycanda bu gün də mövcud olan bir çox adət-ənənənin qədim köklərə malik olduğunu sübut edir. Mənbələr təsdiq edir ki, Azərbaycan qədim zamanlardan yolunu buradan salanları heyrətə gətirib, heyran qoyub. Onların marağına səbəb olan yalnız məmləkətimizin təbiətinin əsrarəngizliyi, zəngin təbii sərvətlərə malik olması deyildi. Həm də bu gözəl ölkənin sakinlərinin özlərinə məxsus, maraqlı adət-ənənələrinə, milli-mənəvi dəyərlərini uca tutmalarına heyran qalıblar. Azərbaycanın min illər əvvəl formalaşan milli dəyərləri bu günədək demək olar ki, dəyişməyib, unudulmayıb. Azərbaycan xalqı indi də həmin mənəvi dəyərlərin işığında yaşayır.

Milli-mənəvi dəyərlərini yaşatmaq, gələcək nəsillərə ötürmək xalqın keçmişi ilə bağlılığını, onun varlığını ifadə edir. Dilimiz, dini inancımız, adət-ənənələrimiz, həmçinin tarixən bu torpaqlarda mövcud olmuş birgəyaşayış mühiti, tolerantlıq kimi xüsusiyyətlərimiz milli-mənəvi dəyərlərimizdir. Bu dəyərlərə sadiqlik, onları yaşatmaq, təbliğ etmək, nəsillərə sevdirmək doğma Vətənimizin və xalqımızın gələcəyi naminə vacib və əhəmiyyətlidir. Azərbaycan xalqı əsrlərdir ki, məhz bu dəyərlərə söykənərək tarixin ağır sınaqlarından, çətin imtahanlarından uğurla çıxmağı bacarıb, öz milli kimliyini, dövlətçilik ənənələrini qoruyub saxlamağa müvəffəq olub.

### Dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan

Azərbaycan hər zaman milli-mənəvi və bəşəri dəyərlərə ehtiram göstərən məkan olub. Bu məmləkətdə əsrlərdən bəri multikulturalizm və tolerantlıq ənənələri mövcud olub, formalaşıb. Son illər ölkəmizdə milli-mənəvi dəyərlərimizin təbliği və inkişafı istiqamətində uğurlu işlər həyata keçirilir. Azərbaycanda milli-mənəvi irsə, dini dəyərlərə ehtiram, müxtəlif mədəniyyətlərin dialoqu, tolerantlıq ənənələri yüksək səviyyədədir.

Milli-mənəvi cəhətdən zəngin, müxtəlif dil, din və mədəniyyətlərin sərbəst şəkildə inkişaf etdiyi ölkələrdən biri olan Azərbaycanda sülh, dostluq, qardaşlıq hökm sürür. Azərbaycanda dövlət-din münasibətləri, milli-dini sabitlik, etnik və dini dözümlülük, tolerantlıq və multikulturalizm dövlət səviyyəsində qorunub saxlanılır. Məscidlər, ziyarətgahlar, sinaqoqlar, kilsələr tikilir və bərpa olunaraq dindarların istifadəsinə verilir. Dövlət başçısı İlham Əliyev respublikamızda dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin alternativinin olmadığını vurğulayıb: "Bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, Beynəlxalq tolerantlıq gününün böyük məmnuniyyət hissi ilə ayrı-ayrı konfessiyaların nümayəndələrinin iştirakı ilə qeyd olunması, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması bunun bariz nümunəsidir. Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur".

Azərbaycanda hansı xalqa, etnik qrupa, dinə məxsusluğundan asılı olmayaraq, ibadətgahlar dövlət tərəfindən qorunaraq bərpa olunub. Bakının mərkəzində erməni kilsəsi belə yüksək səviyyədə bərpa olunub və fəaliyyətini davam etdirir. Ermənistan dövləti isə eyni vaxtda Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqlarını işğal altında saxlayarkən həmin əraziləri xarabalığa çevirdilər. Otuz ilə yaxın davam etdirdikləri işğal müddətində erməni vandalları bütün tikililəri - yaşayış və inzibati binaları, tarixi-mədəni, dini abidələri uçurub dağıtdılar, yerləyeksan etdilər. Ermənistan işğalda saxladığı Azərbaycan ərazilərində azərbaycanlıların dini ocaqlarını, məscidlərini, ibadətgahlarını dağıtdılar, məscidlərimizi tövlələrə, qəbiristanlıqlarımızı otlaqlara çevirdilər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerləyeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salmışlar, dağıtmışlar. Məscidlərimiz dağıdılıb. Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5 mindən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerləyeksan ediblər".

### Vətəninin, xalqının adını ucaldanlar…

Mənəvi aləmimizi zənginləşdirən, milli vəhdətimizi təmin edən dəyərlərimiz sayəsində var olmuşuq və bu gün də varıq. Hər bir şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin böyük rolu var. Əbəs yerə ailəni kiçik dövlətə bənzətmirlər. Əsas dəyərlər ailədə formalaşmağa başlayır. Ədalət, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, cəsarət, mərdlik, dürüstlük, halallıq, milli-mənəvi dəyərlərə, soy-kökünə bağlılıq, böyüklərə ehtiram və əməksevərlik ruhunda tərbiyənin əsası ailədə qoyulur. Sonradan bu tərbiyənin təkmilləşməsində təhsil ocaqları, cəmiyyət mühüm rol oynayır. Böyüklərə hörmət və ehtiram, uşaqlara diqqət, qayğı və sevginin aşılanan, xalqın milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə rəğbət öyrədilən ailə adlı müqəddəs ocaqda, böyüyüb boya-başa çatan, təhsil aldığı məktəblərdə elmi biliklərə yiyələnməklə bərabər, həm də vətəndaşlıq ruhunda formalaşan gənclər ölkəsinin, xalqının adını daha da yüksəklərə qaldırırlar. Vaxt gəlir doğma Vətəni, xalqı da onlarla qürur duyur. Eyni ilə Vətən müharibəsində olduğu kimi…

2020-ci ilin 27 sentyabrında Ermənistan tərəfinin təxribatı nəticəsində müharibə başladı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qismən səfərbərlik elan etdi. Minlərlə gənc dərhal hərbi komissarlıqlara müraciət edərək, könüllü kimi cəbhəyə getməyə hazır olduqlarını bildirdilər.

44 gün davam edən Vətən müharibəsi Azərbaycan xalqının tarixi qələbəsi oldu. Azərbaycan Ordusu təkcə düşmənlərinə deyil, bütün dünyaya qəhrəmanlığını, yenilməzliyini göstərdi. Müharibənin başladığı ilk gündən son günədək yeni-yeni qələbələrlə irəliləyən, otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalı altında qalan ərazilərimizi bir-bir azad edən, yağı düşmənin işğalına son qoyan Azərbaycanın oğulları igidliyin, cəsurluğun, vətənpərvərliyin simvolu oldular. Düşmənin yalnız onlara qarşı silah qaldıran, atəş açan döyüşçüləri ilə vuruşdular, mülki əhalisinə toxunmadılar.

Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycan xalqının sabahı nurlu, gələcəyi parlaqdır. Onun gəncləri düzgün tərbiyə alıblar, heç bir çətinlik onları doğru bildikləri yoldan çəkindirə bilməz. Çünki ən çətin şəraitdə belə dözümlü, qətiyyətlidirlər, qəddar, zalım və amansız düşmənlə müharibə aparanda da cəsur, mərd, dürüstdürlər.

Azərbaycan cəmiyyətində tarixən mövcud olmuş fərqli mədəniyyətlərə hörmət ruhu, tolerantlıq mühiti, nümunəvi dövlət və din münasibətləri Vətən müharibəsində zəfərimizi şərtləndirən əsas amillərdən oldu. Respublikamızda yaşayan bütün xalqlar, etnik qruplar bir amal, bir məqsəd ətrafında sıx birləşdilər. Milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq, bu ölkənin vətəndaşı olan hər kəs doğma vətəni Azərbaycanın ərazi bütövlüyü, düşmənin xar və məğlub olması naminə ayağa qalxdı. Göstərdilər ki, tolerantlıq və multikultural dəyərləri ilə bütün dünyaya nümunə olan Azərbaycanın qələbə və uğur dolu günləri bundan sonra da davam edəcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Yeni islahatlar uğur vəd edir

## Elm və təhsil birlikdə inkişaf edəcək

Uzun illərdir Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) və Təhsil Nazirliyinin birləşdirilməsi, iki oxşar qurumun ayrılıqda fəaliyyətinin doğru olmadığı, bəzən isə bunun əksinə olan mülahizələrə rast gəlinirdi.

Bəzi dünya ölkələrində Elm və Təhsil Nazirliyinin birgə fəaliyyəti təcrübəsindən geniş istifadə olunur. Ümumiyyətlə, təhsil və elmin bir-birindən ayrı olmadığı, onların vəhdətinin qorunması vacib məsələ kimi qiymətləndirilir.

Azərbaycanda da Prezident İlham Əliyevin 28 iyul tarixli "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərmanı ilə Təhsil Nazirliyi Elm və Təhsil Nazirliyi adlandırıldı və AMEA-nın tabeliyindəki elmi müəssisə və təşkilatlar nazirliyin tabeliyinə verildi.

Eyni zamanda elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər nazirliyə həvalə edildi. Nazirliyin yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi yaradıldı. Bu fərmanla ölkəmizdə elm və təhsilin inteqrasiyalı şəkildə inkişafına start verildi və bu istiqamətdə islahatlar davam edəcək.

### Fərman məzmunca əhatəli, məqsədlərinə görə isə stratejidir

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı Prezident İlham Əliyevin fərmanına uyğun olaraq Elm və Təhsil Nazirliyinin yaradılmasını bu istiqamətdəki islahatların tərkib hissəsi hesab edir və bunun doğru qərar olduğunu vurğulayır.

Deputatın sözlərinə görə, elmimizin idarəedilməsinin təşkilinin səmərəli qurulmasına, qarşısında dayanan vəzifələrin müasir tələblərə uyğun yerinə yetirilməsinə yönələn, ümumi inkişafa fayda verəcək fərman mahiyyətcə inqilabi, məzmunca əhatəli, məqsədlərinə görə isə stratejidir. Azərbaycan elminin simasını dəyişməyi, səviyyəsini yüksəltməyi və dünyada özünəməxsus yer almasını nəzərdə tutan bu islahat böyük tarixi əhəmiyyət daşıyır.

Onun sözlərinə görə, fərmanın uğurla icra edilməsi nəticəsində ölkəmizdə elm və təhsilin inteqrasiyası dərinləşəcək. Elmi tədqiqatların nailiyyətləri universitet auditoriyalarına daha tez daxil olacaq, istehsalata tətbiqi sürətlənəcək. Gənclərin elmə həvəsi artacaq, nəsillər arasında üzvi əlaqə, təbii varislik təmin ediləcək. Dövlətimiz üçün ən vacib olan elmi-tədqiqat işlərinin qısa, orta və uzunmüddətli sistemli planlaşdırılması həyata keçiriləcək, dünya səviyyəsinə çıxa biləcək araşdırmalar aparılacaq.

Musa Qasımlı qeyd edir ki, islahatlar nəticəsində ali təhsilin keyfiyyəti də yaxşılaşacaq: "Dövlətimizin başçısı da ölkəmizin inkişafının qabaqcıl elm, təhsil və yeni texnologiyalarda olduğunu daim vurğulayır. Elmimizin tarixində yeni mərhələ başlayır".

Deputat onu da bildirir ki, görüləcək işlər çox və məsuliyyətlidir.

### Elmi potensialın mərkəzi strukturdan idarə edilməsi müsbət tendensiyadır

Təhsil eksperti Kamran Əsədov qəzetimizə açıqlamasında deyib ki, hazırda Təhsil Nazirliyinə tabe olan 4432 orta məktəb, 51 ali təhsil, 56 orta ixtisas təhsili, 60-dan çox peşə təhsili müəssisələri, məktəbdənkənar təhsil müəssisələri var. Qərardan sonra 1693 uşaq bağçası və körpələr evi də Təhsil Nazirliyinə verilib. Bu o deməkdir ki, kifayət qədər insan bu platformanın ətrafında birləşib.

Ekspert bildirir ki, elm və təhsil müəssisələri arasında əlaqələrin qurulması, təhsilin pillələri arasında vahidliyin təmin edilməsi məqsədilə Elm və Təhsil Nazirliyinin yaradılması çox müsbət haldır. Onun sözlərinə görə, Azərbaycanda rəqabətədavamlı və dayanıqlı iqtisadiyyatın formalaşmasında yeni nazirliyin böyük xidməti və rolu olacaq. Ona görə ki, hazırda təhsildən gözləntilər çoxdur.

Ekspert vurğulayır ki, yeni fərmandan sonra elm və təhsil vəhdət halında inkişaf edəcək. Elmi potensialın mərkəzi strukturdan idarə edilməsi müsbət tendensiyadır. Əslində, dünyanın bir çox ölkəsində bu təcrübədən istifadə edilir. Təhsil Nazirliyi ayrıca deyil, Elm və Təhsil Nazirliyi, yaxud Elm, Təhsil və İnnnovasiyalar üzrə Nazirlik kimi fəaliyyət göstərir. İnnovativ yeniliklərin həyata keçirilməsi üçün nazirliyin qarşısında böyük hədəflər olur.

Ekspertlərin fikirləri, eyni zamanda dünya təcrübəsindən də görünür ki, elm və təhsilin vəhdət halında inkişafı daha uğurlu nəticələrə gətirib çıxarır. Bu, təhsil pillələri arasında bağ yaratmaqla, insanları elmə həvəsləndirir. Bununla da savadlı kadrlarla yanaşı, düşünən beyinlər artır. Bu da əksər sahələrə müsbət təsir edir. Müasirləşən, durmadan inkişaf edən dünyamızda elmin rolu əvəzsizdir. Necə deyiblər, elm inkişafın ön cəbhəsidir. Ön cəbhədə olmaq üçün isə hər şey məktəbdən, hətta bağçadan başlayır desək, yanılmarıq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsi daim diqqət mərkəzində olan məsələdir. Bu, Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin, eləcə də həyata keçirilən sosial islahatların ayrılmaz hissəsini təşkil edir. 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramının icrasına start veriləndən üzübəri həyata keçirilən ardıcıl tədbirlər nəticəsində ölkədə çoxsaylı iş yerləri açılıb.



## Məşğulluğun təminatı dövlətin sosial siyasətinin ana xəttidir

Buna ilk növbədə qeyri neft-qaz sektorunun getdikcə irəliləməsi, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması sayəsində yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması zəmin yaradıb. Əmək qabiliyyətli insanların işlə təmin edilməsi üçün eləcə də yeni yollar axtarılır, məşğulluğun yeni formaları tapılır, bu məqsədlə daxili ehtiyat mənbələrindən geniş istifadə olunur.

Əhalinin işlə təminatının daim diqqət mərkəzində olmasını Dövlət Statistika Komitəsinin təqdim etdiyi rəqəmlər də təsdiqləyir. Təkcə keçən il Azərbaycanda 69 min yeni iş yeri açılıb. Bu da onu göstərir ki, əhalinin məşğulluğunun təmin edilməsi dövlətin prioritetləri sırasında qalmaqdadır.

Yeni iş yerləri həm mövcud, həm də yeni yaradılmış və fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda açılıb. Bu müəssisə və təşkilatlarda onların payı müvafiq olaraq belədir: 87,2 faiz, 10,1 faiz və 0,6 faiz. Yeni iş yerlərinin qalan 2,1 faizi digər tədbirlər üzrə yaradılıb. İş yerlərinin açılması zamanı mütləq coğrafiya da nəzərə alınır. Belə ki, iş yerləri təkcə paytaxtda və iri şəhərlərdə deyil, bütün bölgələrdə açılır. Bu bölgünü göstərən rəqəmlər də maraq doğurur. Məsələn, ötənilki yeni iş yerlərinin 77,1 faizi Bakı şəhərinin payına düşsə də, 0,6 faizi Naxçıvan Muxtar Respublikasında, 22,3 faizi digər regionlarda yaradılıb. Regionlarda açılan iş yerlərinin 4,7 faizi Abşeron-Xızı, 3,8 faizi Gəncə-Daşkəsən, 2,3 faizi Lənkəran-Astara, 2,2 faizi Quba-Xaçmaz, 2 faizi Şəki-Zaqatala, 1,5 faizi Qazax-Tovuz, 1,4 faizi Şirvan-Salyan, 1,3 faizi Mərkəzi Aran, 1 faizi Qarabağ, 1 faizi Mil-Muğan, 0,8 faizi Dağlıq Şirvan, 0,3 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarındadır.

Yaradılan iş yerləri iqtisadiyyatın və sosial sferanın müxtəlif sahələrini əhatə edir. Belə ki, yeni iş yerlərinin 88,8 faizi qeyri-neft sektorunda açılıb.

Bu il iyulun 1-i vəziyyətinə ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 334,3 min nəfər olub. Onlardan 5 milyon 26,1 min nəfərini məşğul əhali təşkil edib. İyunun 1-i vəziyyətinə müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin sayı 1 milyon 706 min nəfər olub. O cümlədən, iqtisadiyyatın dövlət sektorunda 903,5 min, qeyri-dövlət sektorunda 802,5 min nəfər çalışıb. Neft-qaz sektorunda 30,9 min, qeyri neft-qaz sektorunda isə 1milyon 675,1 min nəfər cəmləşib.

Ölkədə istifadəyə verilən, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən yeni müəssisələr məşğulluq məsələsinin həllinə töhfələrini verməkdədir. Məsələn, Sumqayıt Kimya Sənaye Parkında 6 mindən çox insan daimi işlə təmin edilib. Prezident İlham Əliyev cari il iyulun 20-də Sumqayıt şəhərinin sənaye parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edərkən bu fakt bir daha xatırlanıb. Buradakı "Glassica" Qapalı Səhmdar Cəmiyyətinin yeni şüşə tara məhsullarının istehsalı müəssisəsində 160 nəfər daimi işlə təmin ediləcək. "Azərsulfat" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni inşa edilmiş sulfat turşusu istehsalı müəssisəsində hələlik 34 nəfər Sumqayıt sakini işləyəcək. Onların arasında Vətən müharibəsi iştirakçıları da var.

Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də "Az-Tex-Import" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Bu müəssisədə 90 nəfər daimi işlə təmin olunacaq. Dövlət başçısının Sumqayıtda təməlini qoyduğu "Azərbaycan Vanhong Ceramics Co" Məhdud Məsuliyyətli Cəmiyyətinin keramik plitələr istehsalı müəssisəsində isə 400 nəfər işləyərək yüksək maaş alacaq.

Xatırladaq ki, sənaye zonalarında idarəetmənin təkmilləşdirilməsi üçün Prezidentin 22 yanvar 2021-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılıb. Agentlik 6 sənaye parkının (Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları), 4 sənaye məhəlləsinin (Sabirabad, Masallı, Neftçala, Hacıqabul sənaye məhəllələri) və 51 aqroparkın fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlayır və həyata keçirilməsini təmin edir. Sənaye zonaları üzrə indiyədək 108 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 58-i istehsal fəaliyyətinə başlayıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 450 milyon manatdan çox investisiyanın yatırılması və 4500-dən artıq yeni iş yerinin açılması nəzərdə tutulur.

Beləliklə, iqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulan prioritetlər uğurla həllini tapır. Eyni zamanda qeyri-neft sektorunda kənd təsərrüfatı məhsullarının payı artır. Nəticədə həm də emal müəssisələri çoxalır. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunması və idxaldan asılılığın aradan qaldırılması ilə yanaşı, həm də yeni iş yerləri deməkdir. Məsələn, bu yaxınlarda Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın fəaliyyəti ilə tanış olduqları "Grand-Agro İnvitro" Məhdud Məsuliyyətli Cəmiyyətinin müəssisəsi və açılışını etdikləri "Azbadam" Məhdud Məsuliyyətli Cəmiyyətinin badam emalı zavodunda onlarla insanın məşğulluq problemi həllini tapacaq.

Əhalinin işlə təmin olunması sahəsində özünüməşğulluq da özünə geniş yer alır. Prezidentin tapşırığı ilə bu proqramın icrası zamanı şəhid ailələrinə və qazilərə üstünlük verilir.

Azərbaycan Respublikasının "Məşğulluq haqqında" qanununda qeyd olunduğu kimi, özünüməşğulluq şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi deməkdir. Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Bu proqram Prezidentin 7 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamına əsasən həyata keçirilir. Proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) dəstək göstərilir. Ailə təqdim etdiyi biznes plana uyğun şəkildə istehsal və ya xidmət avadanlıqları ilə təmin olunur. Bu, dövlət özünüməşğulluq proqramını digər ölkələrdəki təcrübədən fərqləndirən cəhətdir.

Özünüməşğulluq vətəndaşlar üçün əlverişli qazanc formasıdır. Belə ki, hər ailənin öz büdcəsi olur, bunun sayəsində də insanlar müəyyən iş qura bilirlər. Əlbəttə, dövlətin köməyi ilə. Bu proqram insanların dolanışığını yaxşılaşdırmaqla yanaşı, iqtisadi inkişafa təkan verir. Əhalinin məşğulluğunun təmin olunması istiqamətində atılan uğurlu addımlardan biri də ictimai iş yerlərinin yaradılmasıdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən aktiv məşğulluq proqramları ildənilə genişlənir. 2018-2022-ci illərdə agentlik 346 min şəxsi işlə təmin edib. Bu dövrdə 52 min şəxs özünüməşğulluq proqramına, 9 mindən çox şəxs peşə hazırlığına cəlb edilib. İşsiz və işaxtaran şəxslərə peşəyönümü məsləhət xidmətlərinin göstərilməsi, işsizlikdən sığorta ödənişinin təyin edilməsi və digər istiqamətlərdə də dəstək göstərilir.

Bir sözlə, Azərbaycanda əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır. Bunların da mühüm bir hissəsini yeni iş yerlərinin açılması təşkil edir.

*Flora SADIQLI, "Azərbaycan"*

## Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödənişlərin verilməsi davam edir

**Prezident İlham Əliyevin Qarabağ müharibəsi əlillərinə xüsusi qayğısının davamı olaraq icra edilən birdəfəlik ödəmə proqramı davam edir.**

Xatırladaq ki, proqram hərbi qulluqçuların sığortası ilə bağlı qanun qəbul edilən tarixədək - 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldıqları xəsarətlə bağlı əlillikləri olmuş şəxsləri əhatə edir.

Sənədləri e-sistemdə mövcud olan şəxslərə bu ödəmə proaktiv şəkildə ödənilir. Sənədləri e-sistemlərdə olmayanlar isə sənədlərini aidiyyəti qurumlara müraciət etməklə elektronlaşdırır və bundan sonra Dövltə Sosial Müdafiə Fondu tərəfindən ödəniş həyata keçirilir.

## SİF İsmayıllıda 31,3 milyon manat güzəştli kredit verib

**Regionların sosial-iqtisadi inkişafına töhfə verən investisiya layihələrinin dəstəklənməsi davam edir.**




AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. "Bu günədək Sahibkarlığın İnkişafı Fondu (SİF) İsmayıllı rayonunda fəaliyyət göstərən 546 sahibkarlıq subyektinə 31,3 milyon manat güzəştli kredit verib. Ötən il "Agro Life" MMC-yə məxsus olan və dəyəri 1,7 milyon manat olan investisiya layihəsinin 1 milyon manatı fondun güzəştli kredit vəsaiti hesabına maliyyələşdirilib", - deyə nazir diqqətə çatdırıb.

## Şəhid və şəhid ailəsi statusu almış şəxslərin, müharibə veteranlarının elektron reyestri yaradılacaq

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları ilə "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması Qaydası" və "Müharibə veteranlarının reyestrinin aparılması Qaydası" təsdiq edilib.**

Qərarlar Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli fərmanlarının icrasının təmin edilməsi məqsədilə qəbul edilib.

Yeni qaydalara əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində müharibə veteranlarının, şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrləri elektron formada aparılacaq.

Reyestrin əsas təyinatı şəhidlər, şəhid ailəsi üzvləri, müharibə əlilləri və veteranları barədə vahid informasiya bazasının yaradılması, onlarla əlaqədar müvafiq məlumatların toplanılması, işlənməsi, saxlanılması və axtarışının avtomatlaşdırılmasıdır.

Şəhidlər, şəhid ailə üzvləri, müharibə əlilləri və veteranlarının elektron qaydada vahid informasiya bazasının yaradılması gələcəkdə müvafiq kateqoriyalardan olan şəxslərin dövlət orqanlarına müraciətləri zamanı statuslarının real vaxt rejimində operativ müəyyənləşdirilməsinə şərait yaradacaq, sosial təminat hüquqlarına çevik və proaktiv qaydada baxılmasına imkan verəcək.

## Bakıda 6 ölkənin dəmir yolu operatorlarının toplantısı keçirilib

Bakıda "Asiya Sakit okean regionu ölkələri-Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa" beynəlxalq multimodal marşrutu üzrə iştirakçı ölkələrin dəmir yolları operatorlarının iclası keçirilib.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, dəhliz boyu yükdaşımaların səmərəliyinin artırılmasını, əməliyyatların optimallaşdırılmasını təmin edəcək rəqəmsal platformanın sınaq versiyası artıq hazırdır. Bu sahədə ixtisaslaşmış "UNİSER" şirkətinin hazırladığı platformanın test rejimində tətbiqi başlayır.



Bu barədə AZƏRTAC-ın yaydığı məlumatda bildirilir ki, toplantıda "Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini İqbal Hüseynov iştirakçı ölkələrin dəmir yolu idarələrinin marşrutun cəlbediciliyinin artırılması istiqamətində birgə əməkdaşlığından danışıb. Qeyd olunub ki, marşruta yüklərin cəlb edilməsi, ortaya çıxan problemlərin operativ həllinin sürətləndirilməsi istiqamətində səylərin birləşdirilməsi zəruridir.

Həmçinin altı ölkəni təmsil edən operatorlar tərəfindən Çinin Qaşqar şəhərindən Avropaya konteynerlərlə yükdaşımalar üzrə pilot layihə müzakirə edilib.

Toplantıda marşrutla bağlı məlumatların yer alacağı veb-səhifənin müzakirəsi də aparılıb.

Operatorlar marşrutun səmərəliliyinin artırılması üçün tərəflərin iştirakı ilə Konsorsiumun yaradılmasının zəruriliyini vurğulayıblar, bu istiqamətdə müzakirələrin davam etdirilməsi barədə qərar qəbul ediblər.

Xatırladaq ki, "Asiya və Sakit okean regionu-Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa nəqliyyat marşrutu 2019-cu ildə, "Azərbaycan Dəmir Yolları" QSC və müvafiq ölkələrin dövlət dəmir yolları qurumlarının iştirakı ilə yaradılıb.

## Qeyri neft-qaz sənayesində məhsul istehsalı artıb



Dünya iqtisadiyyatında koronavirus pandemiyası səbəbindən baş vermiş geriləmə tam aradan qalxmamış Rusiya-Ukrayna münaqişəsi qlobal iqtisadiyyatın başının üstünü kəsdirib. Pisi də odur ki, hələlik bu qarşıdurmanın nə qədər davam edəcəyi bilinmir.

Dünyanın tanınmış beynəlxalq səviyyəli mütəxəssisləri qeyd edirlər ki, proses uzansa, dünya yenidən növbəti iqtisadi böhrana daxil ola bilər, özü də daha üzunömürlüsünə. Hazırda məlum səbəblərdən neft və qazın qiyməti yüksək səviyyəyə çatıb. Xüsusilə qazın qiymətinin (1000 kubmetrinin) 2 min dollardan yüksək olması Avropa ölkələrini rahatsız edir. Avropa isə dünyanın ən çox məhsul istehsal edən regionlarından biridir. O üzdən "qoca" qitədə böhran başlasa, bütün dünya iqtisadiyyatına mənfi təsir göstərəcək.

Azərbaycana gəldikdə, onu vurğulayaq ki, zamanında aparılan iqtisadi islahatlar sayəsində ölkəmiz dinamik

### İxracda da bu sahənin payı az deyil

inkişafdan qalmır. Dövlət Statistika Komitəsinin (DSK) verdiyi məlumata görə, cari ilin yanvar-iyun aylarında ölkə üzrə ÜDM istehsalı 6,2, o cümlədən neft-qaz sektorunda 0,2, qeyri neft-qaz sektorunda 9,6 faiz artmışdır.

Yaranan əlavə dəyərin 53,3 faizi sənayedə qeydə alınmışdır. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 6 ay ərzində 42,2 milyard manatlıq və ya ötən ilin müvafuq dövrü ilə müqayisədə 2,1 faiz çox sənaye məhsulları istehsal olunmuşdur. Bu sahə üzrə neft-qaz sektorunda məhsul istehsalı 0,6, qeyri neft-qaz sektorunda 11,5 faiz artım qeydə alınmışdır. DSK-nin məlumatına əsasən, hesabat dövründə sənaye məhsullarının 75,7 faizi mədənçıxarma, 20,4 faizi emal, 3,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,5 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir.

Sənaye sektorunda özəl müəssisələrin məhsul istehsalındakı payı ildən-ilə artmaqdadır. Belə ki, ilin birinci yarısında istehsal olunan sənaye məhsullarının 88,5 faizi qeyri-dövlət sektoruna məxsusdur. Həmin dövrdə ümumi istehsalın 94,2 faizi sənaye məhsullarının istehsalı, 5,8 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına formalaşmışdır. Qeyri-neft sənayesindən söz düşmüşkən onu da bildirək ki, bu sahə üzrə məhsul istehsalı və ixracının dinamikasında ciddi artım var. Cari ilin yanvar-may aylarında qeyri neft-qaz məhsullarının ixracının dəyəri keçən ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 30,9, real ifadədə 17,5 faiz artaraq 1 milyard 188,1 milyon dollara çatmışdır.

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatları istehsalının xüsusi çəkisi qeyri neft-qaz sənayesində daha yüksəkdir. Hesabat dövründə həmin sahələrdə 1 milyard 146,6 milyon manatlıq məhsul istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə əczaçılıq məhsulları üzrə 2,1 dəfə, kimya sənayesi məhsulları üzrə 20,4, rezin və plastik kütlə məmulatları istehsalı üzrə 10,1 faiz çoxdur.

Tikinti materialları istehsalı sənayenin qeyri-neft sektorunda yüksək paya malik olan sahələrdəndir. Cari ilin birinci yarısında burada 520,5 milyon manatlıq məhsul istehsal olunmuşdur. Bu da ötən ilin müvafiq dövründəki göstəricini 33,4 faiz üstələyir.

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı da seçilən sahələrdəndir. Bu sahə üzrə hesabat dövründə 821,4 milyon manatlıq məhsul istehsal olunmuşdur. Hazır metal məmulatlarının istehsalında 88,9, poladtökmədə 55,9 faiz artım müşahidə edilmişdir.

*Rüstəm KAMAL, "Azərbaycan"*

## "Bolt Services AZ" MMC cərimələnib

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti antiinhisar qanunvericiliyinin pozulması hallarının qarşısının alınması istiqamətində müraciətlərin araşdırılması ilə bağlı mütəmadi tədbirlər həyata keçirir.

"Delivery Azerbaijan" MMC tərəfindən Dövlət Xidmətinə "Bolt Services AZ" MMC-nin qanunsuz üsullarla digər bazar subyektlərini bazardan çıxarmaqla haqsız rəqabətə yol verdiyi barədə müraciət daxil olub. Bununla bağlı müvafiq araşdırma aparılıb və "Bolt Services AZ" MMC haqqında antiinhisar qanunvericiliyinin pozulması əlamətləri üzrə iş qaldırılıb. İşə baxılması zamanı "Bolt Services AZ" MMC-nin onunla eyni bazarda fəaliyyət göstərən və ya həmin bazara daxil olmaq istəyən digər bazar subyektlərinin təsərrüfat qərarlarının qəbul edilməsinə qanunsuz təsir göstərdiyi və bununla da "Haqsız rəqabət haqqında" qanunun tələblərini pozduğu müəyyən edilib. Dövlət Xidməti tərəfindən işə baxılmanın nəticəsi olaraq yol verilmiş haqsız rəqabət hallarının qarşısının alınması və aradan qaldırılması məqsədilə "Bolt Services AZ" MMC-yə icrası məcbur olan göstəriş verilib, habelə haqsız rəqabətə yol verdiyinə görə müəssisə barədə maliyyə sanksiyası tətbiq olunub.







# 56 ölkə, 4200 atlet

## Bu gün Türkiyədə V İslam Həmrəyliyi Oyunlarının rəsmi açılış mərasimi keçiriləcək





**Bu gün Türkiyədə V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi keçiriləcək. Birliyin və idmanın təntənəsi olan yarışların açılışı Konyadakı 42 min tamaşaçı tutumuna malik Böyükşəhər Bələdiyyəsi Stadionunda keçiriləcək və 3 saat davam edəcək.**

Yarışda 56 ölkədən 4200 idmançı medallar uğrunda mübarizə aparacaq. İdmançılar atıcılıq, atletika, basketbol (3x3), velosiped, gimnastika (idman, bədii, aerobika), futbol, qılıncoynatma, güləş, ağır atletika, həndbol, cüdo, karate, kikboksinq, stolüstü tennis, kamandan oxatma, taekvondo, voleybol, üzgüçülük və milli oxçuluq növlərində yarışacaqlar. Paralimpiyaçılar isə atletika, stolüstü tennis, kamandan oxatma, boccia və üzgüçülük yarışlarında güclərini sınayacaqlar.

Olimpiyaçılar 483 dəst medal uğrunda mübarizə aparacaqlar. Yarışda ilk səkkiz yeri tutan atletlərə xüsusi sertifikat təqdim olunacaq.

Xatırladaq ki, V İslam Həmrəyliyi Oyunları 2021-ci ilin sentyabrında keçirilməli idi. Lakin koronavirus pandemiyası ilə əlaqədar oyunların 2022-ci ilə təxirə salınması məqsədəuyğun hesab olunmuşdu.

### IV İslam Həmrəyliyi Oyunlarına yüksəksəviyyəli evsahibliyi edən ölkə

Avqustun 18-dək keçiriləcək V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edəcək nümayəndə heyəti artıq Türkiyənin Konya şəhərindədir.

Azərbaycan ilk dəfə 2005-ci ildə Səudiyyə Ərəbistanının Məkkə, Mədinə və Ciddə şəhərində İslam Həmrəyliyi Oyunlarına qatılıb. I İslam Həmrəyliyi Oyunlarında idmançılarımız 4 qızıl, 4 gümüş və 7 bürünc medal qazanıblar. II İslam Həmrəyliyi Oyunları 2009-cu ildə İranda keçirilməli idi. Amma Tehranla ərəb ölkələri arasında yaranmış mübahisə ucbatından İslamiada baş tutmayıb.

2013-cü ildə isə İndoneziyanın Palembanq şəhərində III İslam Həmrəyliyi Oyunlarında Azərbaycan 53 idmançı ilə 8 idman növündə təmsil olunub. Azərbaycan idmançıları vətənə 24 medalla (7 qızıl, 8 gümüş və 9 bürünc) qayıdıblar. Qızıl medalları karateçilər Rəfael Ağayev, Ayxan Mamayev, yüngül atletlər Hayle İbrahimov, Yekaterina Sarıyeva, üzgüçü Boris Kirilov, həmçinin Rəfael Ağayev, Ayxan Mamayev, Niyazi Əliyev və Şahin Atamovdan ibarət Azərbaycan karate yığması qazanıblar. Azərbaycan medal sıralanmasında 41 ölkə arasında 8-ci yeri tutub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşan siyasət ölkəmizin hər bir regionunda müasir idman komplekslərinin, stadionların tikilərək uşaqların, yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi böyük idmançı ordusunun formalaşmasını və idmanın inkişafını təmin edib. Eyni zamanda bir-birini əvəzləyən idman yarışları Bakının ən mötəbər turnirlərə, dünya və Avropa çempionatlarına evsahibliyi etmək imkanlarını təsdiqləyib.

İslam Həmrəyliyi İdman Federasiyası məhz bu amilləri nəzərə alaraq, IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsinə qərar verib və həmin İslamiada Azərbaycanın və İslam ölkələrinin idman tarixində mühüm və əlamətdar hadisəyə çevrilib.

2017-ci il mayın 12-22-də Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan 162 medal (75 qızıl, 50 gümüş və 37 bürünc) qazanaraq yarışların qalibi olub. Ölkəmizin hesabına qızıl medalları Kamran Məmmədov, Elvin Mürsəliyev, İslam Abbasov, Orxan Nuriyev, Mahir Əmiraslanov, Hacı Əliyev, Nurməhəmməd Hacıyev, Camaləddin Məhəmmədov, Mariya Stadnik, Leyla Qurbanova, Elisa Manolova və Tatyana Omelçenko (güləş), Orxan Səfərov, Nicat Şıxəlizadə, Hidayət Heydərov, Məmmədəli Mehdiyev, Elxan Məmmədov və Erdenebat Bazarraqça, habelə Azərbaycan yığması (cüdo), Nurlan İbrahimov, Elmir Cəbrayılov, Elçin Muradov, Oloxan Musayev, Samir Nəbiyev (2) və Yelena Çebanu (2) (paraatletika), Ayxan Tağızadə, Milad Beigi, Ramin Əzizov, Radik İsayev, Patimat Abakarova və Yaprağ Əriş (taekvondo), Rəfael Ağayev, Ayxan Mamayev, Roman Heydərov, Fəridə Abıyeva və İrina Zaretska (karate), Elçin Talıbov, Ramil Qasımov, Afaq Sultanova və Ramilə Kaşdayeva (paracüdo), Cavid Çələbiyev, Teymur Məmmədov və Məhəmmədrəsul Məcidov ( boks), Murad Ağarzayev, Bense Talas (2) və Yuliya İnşina (hamısı idman gimnastikası idman növü üzrə), Ruslan Lunyov (4), Nigar Nəsirova/Ruslan Lunyov cütlüyü və Əli Hüseynli/Aydan Camalova cütlüyü (atıcılıq), Marina Durunda (2) və Jalə Piriyeva, habelə Azərbaycan yığması (bədii gimnastika), Nazim Babayev və Anna Skidan (yüngül atletika), ağır atlet Anastasiya İbrahimli, suya tullanan Olqa Bıkovskaya (2), üzgüçü Maksim Şemberev (4) və zorxana ustası Rüfət Gülalıyev, Azərbaycanın basketbol 3x3 (kişi və qadın), futbol (kişi), həndbol (qadın) və voleybol (qadın) üzrə yığma komandaları yazdırıblar.




### Azərbaycan İslamiadaya 281 idmançı ilə yollanıb

Azərbaycan Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarında iştirak etmək üçün 281 idmançı ilə yollanıb. İdman nümayəndə heyətimizin bayraqdarları da artıq məlumdur. Bu gün keçiriləcək açılış mərasimində ölkəmizin adı yazılan lövhəni Olimpiya Oyunlarının gümüş və bürünc mükafatçısı, üçqat dünya çempionu, üçqat Avropa çempionu, Avropa oyunlarının qızıl və bürünc mükafatçısı güləşçi Hacı Əliyev daşıyacaq.

Üçrəngli bayrağımızı isə Avropa çempionu, IV İslam Həmrəyliyi Oyunlarının qalibi, Universiadanın ikiqat qalibi atlet Nazim Babayev və qadın voleybolçulardan ibarət Azərbaycan millisinin kapitanı, "Çağırış" kubokunun qalibi, "Qızıl Avropa" liqasının və IV İslam Həmrəyliyi Oyunlarının çempionu Ayşən Abduləzimova aparacaqlar.

Qeyd edək ki, yarışlar açılış mərasimindən əvvəl başlayıb. Avqustun 7-də Azərbaycan velosipedçiləri növbəti yarışlarda iştirak ediblər.

Elit/U23 yığma komandamızın üzvləri Konya velodromunda trek velosipedinin xallar üzrə qrup ötüşməsi növündə mübarizə aparıblar. Qadınlar arasında yarışda Viktoriya Sidorenko və Ayan Xankişiyeva, kişilər arasında isə Musa Mikayılzadə və Nəcəf Bağırov güclərini sınayıblar. Perspektivli velosipedçimiz Ayan Xankişiyeva əzmkar mübarizə apararaq 13 xalla 4-cü yerə layiq görülüb, M.Mikayılzadə isə 8 xalla 7-ci yerə çıxıb. Digər idmançılarımız V.Sidorenko və N.Bağırov ümidləri doğrultmayıb və mübarizəni dayandırıblar.

Qeyd edək ki, V İslam Həmrəyliyi Oyunlarında baş məşqçilər Asif Həsənovun (şose üzrə) və Elçin Qəremanovun (trek üzrə) rəhbərliyi ilə kişi velosipedçilərdən Elçin Əsədov, Nəcəf Bağırov, Əmral Abduləzizli, Əli Qurbanov, Musa Mikayılzadə, Şahin Eyvazov, Elgün Əlizadə, qadın velosipedçilərdən isə Viktoriya Sidorenko, Ayan Xankişiyeva və Lalə Əbdürəhmanova iştirak edirlər. İdmançılarımız həm trek, həm də şose növlərində yarışırlar.

Srağagün qadın həndbolçulardan ibarət Azərbaycan millisi ilk oyunda Kamerun yığması ilə qarşılaşmalı idi. Lakin kamerunlular meydana çıxmadığından millimizin aktivinə qələbə yazılıb - 10:0. Bu gün Əfqanıstan seçməsi ilə qarşılaşacaq komandamız avqustun 11-də qrup mərhələsinin son turunda İran millisi ilə görüşəcək.

Həndbol yarışlarında yarımfinal görüşləri avqustun 13-də, mükafatlar uğrunda oyunlar avqustun 14-də olacaq.

Stolüstü tennis üzrə şəxsi yarışlara da start verilib. İslamiadada Azərbaycanı milli komandamızın üzvləri Ləman Əbdülhəmidova, Adil Əhmədzadə, Nihad Məmmədov, Vəzir Allahverdiyev, Emin Məmmədov, Zemfira Mikayılova, Mərziyyə Nurmətova və Nəzakət Qarayeva təmsil edirlər.

Kişilərin şəxsi yarışında Azərbaycan idmançısı Emin Məmmədov Qazaxıstan təmsilçisi Akimali Bakdauletə 3:0 hesabı ilə qalib gələrək 1/16 finala yüksəlib.

Qeyd edək ki, V İslam Həmrəyliyi Oyunlarında stolüstü tennis yarışları avqustun 11-dək davam edəcək.

Dünən axşam atletlər, üzgüçülər, futbolçular və qadın voleybolçular mübarizəyə başlayıblar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***




## İslamiadaya qızıl medalla başladıq

Azərbaycan Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ilk medalını qazanıb. Özü də bu ən yüksək əyarlı medaldır.

Belə ki, 5 il əvvəl Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında qızıl medala yiyələnmiş Anna Skidan bu dəfə də idmanın çəkicatma növündə bütün rəqiblərini qabaqlayaraq, fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Futbol üzrə milli komandamız ilk oyununu keçirib

Futbol üzrə Azərbaycan millisi Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında ilk oyununu keçirib.

Cümhuriyyə stadionunda təşkil olunan matçda millimiz Səudiyyə Ərəbistanı yığması ilə qarşılaşıb.

Gərgin idman mübarizəsi şəraitində keçən oyunda millimiz 0:1 hesabı ilə məğlub olub. Yığmamız növbəti oyununu avqustun 10-da İran seçməsinə qarşı keçirəcək.

## **Fərid QAYIBOV:** "V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan ən böyük nümayəndə heyəti ilə təmsil olunub"

"Əllidən artıq ölkənin iştirak etdiyi V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan ən böyük nümayəndə heyəti ilə təmsil olunub. Bu onu göstərir ki, Azərbaycanda idman inkişaf edir. Komandamız İslamiadada 24 növdən 22-də iştirak edir. Belə böyük nümayəndə heyəti ilə təmsil olunmaq bizim üçün şərəfli və qürurludur".




Bu sözləri Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov jurnalistlərə müsahibəsində bildirib. O, qeyd edib ki, ötən İslamiada ilə budəfəki oyunlarda müəyyən fərqlər var. Son İslam Həmrəyliyi Oyunları Bakıda keçirilmişdi və bir çox ölkələr Asiya Oyunları ilə bağlı yarışa tam heyətlə gələ bilməmişdilər. Budəfəki yarışda bəzi idman növlərində komandamızın 1 nömrəliləri iştirak etmir. Bu, yaxın zamanlarda keçiriləcək dünya çempionatlarına hazırlıqla bağlıdır.

Federasiyaların yarışa ciddi hazırlaşdıqlarını xüsusi qeyd edən nazir komandada əhval-ruhiyyənin yüksək olduğunu bildirib: "Düzdür, burada ev sahibi Türkiyə, eləcə də İran, Qazaxıstan, Özbəkistan kimi güclü ölkələrin komandaları iştirak edir. Amma komandamızda əhval-ruhiyyə yüksəkdir və idmançılarımız qələbəyə kökləniblər".

Fərid Qayıbov komandada legionerlərin sayının da azaldığını, bunun isə güclü idmançılarımızın yetişməsi ilə əlaqədar olduğunu bildirib. Nazir onu da qeyd edib ki, ilk dəfədir media nümayəndələrimiz də bu yarışa çox sayda qatılırlar. Bu isə Azərbaycanda azarkeşlərimizin hər bir idman növü və yarışdan ətraflı məlumat ala bilməsi üçündür.

Gənclər və idman naziri dövlət tərəfindən nümayəndə heyəti üçün hər bir şərait yaradıldığını bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva daim idmançılarla maraqlanır və öz tapşırıqlarını verirlər: "Komandamız daha bir ciddi sınaq qarşısındadır. İnanıram ki, nəticələr yaxşı olacaq".

## Qadın voleybolçularımızdan inamlı qələbə

Azərbaycanın qadınlardan ibarət voleybol yığması İslamiadaya inamlı qələbə ilə başlayıb.

Dünən Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında mübarizəyə qatılan milli komandamızın ilk rəqibi Seneqal voleybolçuları olub.

B qrupunda yer alan Azərbaycan yığması görüşü üç setdə qələbə ilə başa vurub -3:0 (25:7, 25:6, 25:10).

Qrupda növbəti rəqiblərimiz Əfqanıstan və Kamerun komandaları olacaq.



# III Yay Düşərgəsinin sonuncu panelində diaspor gənclərinin şəbəkələşməsi prosesi müzakirə edilib

**Diaspor Gənclərinin Şuşada gerçəkləşdirilən III Yay Düşərgəsində "Şəbəkənin genişləndirilməsi və Azərbaycan Diaspor Gənclərinin (ADG) təqdimatı" mövzusunda panel iclası keçirilib.**



Komitədən AZƏRTAC-a bildiriblər ki, panel iclasında Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sektor müdiri Emin Rüstəmov və Avropa Şurasının Gənclər departamentinin Təlimçilər Şəbəkəsinin baş təlimçisi Pərvanə Məmmədova çıxış ediblər.

Diaspor sahəsində şəbəkələşmənin mühüm amil olduğunu vurğulayan çıxışçılar bildiriblər ki, düşərgə iştirakçılarının bu prosesdə fəal iştirakı, tarixi vətənlərini yaşadıqları ölkələrdə yüksək səviyyədə təmsil etmələri böyük əhəmiyyət kəsb edir. Şəbəkələşmə prosesinin müxtəlif istiqamətləri barədə tövsiyələr səsləndirilib.

Sonra panel iştirakçılarına Dövlət Komitəsinin diaspor gəncləri ilə bağlı həyata keçirdiyi müxtəlif layihələr, ADG şəbəkəsinin yaranması, indiyədək görülən işlər və gələcək fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, ADG-nin fəaliyyətində yeni mərhələ başlayıb. Artıq bu şəbəkədə təmsil olunan gənclərimizə üzvlük vərəqələri paylanılıb və onlar öz imzaları ilə ADG üzvü olduqlarını təsdiqləyiblər.

Müzakirələrin gedişində düşərgə iştirakçıları gələcək fəaliyyət istiqamətləri - Azərbaycanın yeni reallıqlarının təbliğ olunmasına, Qarabağın dünyada tanıdılmasına dair çoxlu sayda təkliflər səsləndiriblər. Onlar qeyd ediblər ki, III Yay Düşərgəsində və Şuşada gördükləri barədə təəssüratlarını mütləq yaşadıqları cəmiyyətlərin nəzərinə çatdıracaq, diaspor gənclərinin şəbəkələşməsində fəal iştirak etməyə və bu mühüm prosesə əhəmiyyətli töhfələr verməyə çalışacaqlar.

Sonda tədbir iştirakçılarının suallları cavablandırılıb.

# Diaspor Gənclərinin III Yay Düşərgəsi başa çatıb

**Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) irimiqyaslı layihələrindən biri olan "Şuşa-270" Diaspor Gənclərinin III Yay Düşərgəsinin bağlanış mərasimi keçirilib.**



Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, mərasimdə çıxış edən DİDK-nin sədr müavini Elşad Əliyev, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov və DİDK-nin Aparat rəhbəri Daşqın Rəcəbli layihənin uğurla başa çatması münasibətilə düşərgə iştirakçılarını təbrik edib, onlara təhsildə və gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonra düşərgə iştirakçılarına sertifikatlar təqdim olunub, layihə çərçivəsində keçirilmiş intellektual oyunların qalibləri mükafatlandırılıb. Eyni zamanda düşərgədə xüsusi fəallıq göstərən gənclər püşkatmada iştirak edərək hədiyyələr qazanıblar.

Qeyd edək ki, Diaspor Gənclərinin III Yay Düşərgəsi Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə 2022-ci ilin 2-8 avqust tarixlərində gerçəkləşdirilib. Düşərgənin tərəfdaşları Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Dövlət Turizm Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsidir.

Bu möhtəşəm layihədə 50 ölkəni təmsil edən 115 nəfər iştirak edib. Onların arasında həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri olub. Layihənin xalqımızın Qarabağda parlaq qələbəsindən və Dünya Azərbaycanlılarının V (Zəfər) Qurultayından sonraya təsadüf etməsi xüsusi önəm daşıyır.

Xatırladaq ki, Diaspor Gənclərinin I Yay Düşərgəsi "Cümhuriyyətin 100 illiyi" şüarı altında Şəkidə, "Nəsimi-650" II Yay Düşərgəsi isə 2019-cu ildə Şamaxıda keçirilib.





# Koronavirus payıza doğru aktivləşə bilər

## Dünyada bu virusa yoluxanların sayı 600 milyona, ölənlərin sayı isə 6,5 milyona yaxındır

**Görünən odur ki, iki ildən artıqdır dünyanın mübarizə apardığı COVID-19 insanlığın yaxasını hələ uzun müddət buraxmayacaq. Qonşu ölkələrin statistik məlumatlarına nəzər yetirsək, görərik ki, hazırda infeksiyaya gündəlik yoluxma sayı Gürcüstanda, Rusiyada, Türkiyədə və İranda dəfələrlə artıb.**

Dünyada koronavirusa yoluxanların sayı 600 milyona, ölənlərin sayı isə 6,5 milyona yaxındır. Bu statistikanı beynəlxalq təşkilatların, federal və yerli hakimiyyət orqanlarının məlumatları əsasında hesablamalar aparan Cons Hopkins Universiteti bildirib. Məlumata əsasən, bu virusa ən çox yoluxma halları ABŞ, Hindistan, Braziliya, Fransa, Almaniya və Böyük Britaniyada qeydə alınıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, son zamanlar dünya üzrə virusa yoluxma sayında müşahidə olunan artım, əsasən, "Omikron" ştamının mutasiya olunan yeni növləri hesabına baş verib. COVID-19-un təkamülünün istiqaməti və yeni ştamların xüsusiyyətləri tam müəyyən olunmayıb. Belə hesab edilir ki, bu ştamlar digər koronavirus ştamlarından daha az öldürücü olsalar da, yoluxma sürətinə görə birincidirlər. Virus, əsasən, yuxarı tənəffüs yollarında sürətlə çoxaldığından hava-damcı yolu yoluxmada xüsusi rol oynayır. Məhz buna görə ÜST dünyada müşahidə olunan yüksək artım fonunda qapalı məkanlarda maskalardan istifadə etməyi və gigiyena qaydalarına əməl olunmasını təkidlə tövsiyə edir.

### Azərbaycanda epidemioloji vəziyyət qənaətbəxşdir

Ölkəmizdəki epidemioloji vəziyyəti dəyərləndirən Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov bildirdi ki, əksər məhdudiyyətlərin xeyli vaxtdır aradan qaldırılmasına baxmayaraq, hazırda ölkəmizdə epidemioloji vəziyyət qənaətbəxşdir, proses səhiyyə qurumları tərəfindən diqqətlə izlənilir və nəzarət altındadır.

Mütəxəssis qeyd edir ki, bu tip infeksiyalar əsasən payıza doğru aktivləşir. Unutmayaq ki, zaman keçdikcə əldə olunmuş kollektiv immunitet zəifləyir. Pandemiyanın hər yeni dalğası virusun daha sürətli və immun nəzarətindən asan yayına bilən mutant variantları törədir. Bundan əlavə, əksər qadağaların aradan qaldırılması virusun yayılması üçün münbit şərait yaradır: "Ona görə də ölkəmizdə yoluxma halının payızda yüksəlməsi istisna deyil. Pandemiya ərzində mənfi dinamikanın aradan qaldırılması ilə bağlı xeyli təcrübə toplanılıb. COVID-19-un öhdəsindən gəlmək və özümüzü qorumaq üçün birgə səy göstərməliyik".

### Qaydalara riayət etməklə özümüzü qoruya bilərik

Ölkəmizdə epidemioloji vəziyyətin sabit olmasına səbəb peyvəndləmə siyasətinin ilk günlərdən yüksək səviyyədə həyata keçirilməsidir. Həm virusun mutasiyası, həm də insanların vaksinasiyadan keçməsi xəstələrdə simptomların ağırlaşmasının, habelə ölüm hallarının kəskin azalmasının səbəbidir.

Vaksinasiya ilə yanaşı, ehtiyat tədbirlərini də əldən verməməli, sanitar-gigiyenik qaydalara riayət etməliyik. İnfeksionist deyir ki, virusdan qorunma yolları yenə də dəyişməz olaraq qalır: "İlk növbədə qapalı məkanlarda, ictimai nəqliyyatda, yas yerlərində maskadan istifadə, otaqları tez-tez havalandırmaq, insanların sıx toplaşdığı yerlərdən bacardıqca uzaq olmaq, sosial məsafəni (ən azı 1,5 metr) gözləmək, əl və tənəffüs gigiyenası qaydalarına əməl etmək vacibdir".

Mütəxəssis onu da qeyd edir ki, bu sadə tövsiyələr pandemiyanın şiddətli vaxtlarında özünü dəfələrlə doğruldub. Lakin bir müddət gündəlik yoluxmada özünü göstərən ikirəqəmli göstəricilər insanlarda arxayınlıq yaratdı, sanki hər şey geridə qaldı: "Epidemiyanın alovlanma dövründə bu sadə qaydalara etinasızlığın nələrə səbəb olduğunu artıq öz acı təcrübəmizdən bilirik və bunu unutmamalıyıq".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*








## ELAN

**"Bakı Toxucu" QSC-nin 2021-ci il üzrə maliyyə hesabatlarını Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il tarixli SA/065 saylı İcazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov aparmışdır. Auditin nəticəsində 25 iyul 2022-ci ildə müsbət audit rəyi ilə rəsmiləşdirilmişdir.**

**"Bakı Toxucu" Qapalı Səhmdar Cəmiyyətin Rəhbərliyinə**

**Maliyyə hesabatları haqqında**

**Rəy.** Mən, "Bakı Toxucu" Qapali Səhmdar Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişiklikləri haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçotu siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

**Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları "Bakı Toxucu" QSC-in 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətdi aspektlərdə ədalətli əks etdirir.**

**Rəy üçün əsaslar.** Mən, auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikası maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri.** Əsas audit məsələləri mən peşəkar mühakiməmə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və mən bu məsələlərə dair ayrılıqda rəy vermirəm.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti.** Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda rəhbərlik Cəmiyyətin ləğv və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqinda məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsiplərinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi suyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarını verilmə prosesinə nəzarət görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti** Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olnbolmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamənət vermir ki, əhəmiyyətli təhrif movcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmşə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə etimalı olduğu halda, əhəmiyyətli hesab edilir. Azərbaycan Respublikası Auditorlar Palatasının 22 dekabr 2021-ci il tarixli SA /065 saylı İcazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov Müstəqil auditor rəyini 25 iyul 2022-ci il tarixində tərtib etmişdir.

**Auditorlar Palatasının Sərbəst auditor** — Sərbəst Auditor / Independent Auditor — **Vəli Oruc oğlu Bayramov**


# Ermənistan ordusunda xaos davam edir

## Son 8 ay ərzində məğlub ölkənin silahlı qüvvələrinin 28 hərbçisi ölüb

**Ermənistanda bütün sahələr üzrə özünü getdikcə daha qabarıq formada büruzə verən tənəzzül bu ölkənin ordusunda da acınacaqlı durumun formalaşması ilə müşayiət olunur. Orduda korrupsiya, rüşvətxorluq, özbaşınalıq geniş vüsət alıb. Ümumiyyətlə, cəmiyyətdə olan neqativ tendensiyalar ordunu da bürüyüb. Artıq erməni ordusu maddi-texniki, şəxsi heyətlə təminat baxımından əvvəlki dövrlərlə müqayisədə indi daha ciddi çətinliklər yaşayır.**

O da vurğulanır ki, Ermənistan Müdafiə Nazirliyi heç də bütün insidentlər haqda məlumat vermir, bəzi hallar gizli saxlanılır. Paşinyan hakimiyyəti üçün ciddi problemə çevrilən məsələlərdən biri də qeyri-döyüş şəraitində həyatını itirən əsgərlərlə bağlıdır. Belə əsgərlərin valideynləri hakimiyyətin bu məsələyə etinasızlığından cana doyduqlarını bildirir və ölkə rəhbərliyinin indiyə qədər onları aldatdıqlarını bəyan edirlər.

Bu günlərdə Ermənistanın "N" saylı hərbi hissəsinin müqavilələ hərbi qulluqçusu Arşaluys Ovannisyan (1976-cı il təvəllüdlü) naməlum şəraitdə ölüb. Nazirlik onun ölümünün səbəbini açıqlamayıb. Hərbçinin ölümü ilə bağlı məhkəmə-tibbi ekspertizası təyin edilib. Eyni zamanda Şirak rayon sakini, 31 yaşlı Azat M. Göyçə (Sevan) gölündə ölüb. Yerli mətbuatın məlumatına görə, o, hərbi qulluqçu imiş. Faktla bağlı Ermənistan İstintaq Komitəsinin Hərbi İstintaq İdarəsinin Basarkeçər (Geqarkunik) qarnizonunun istintaq şöbəsində cinayət işi başlanıb.

Bu, Ermənistan ordusunda son günlər ərzində ikinci müəmmalı hərbçi ölümüdür. Təhlükəsizlik sisteminin ekspertləri işğalçı ölkənin silahlı qüvvələrində vəziyyətin, həqiqətən də, acınacaqlı olduğunu etiraf edirlər. Onlar hesab edirlər ki, islahatlar aparılmayanadək onsuz da pis vəziyyətdə olan Ermənistan ordusu daha acınacaqlı duruma düşəcək.

Hazırda məğlub ölkənin silahlı qüvvələrində hökm sürən anarxiya onu uçuruma aparır. Bu gün Ermənistan ordusunda adi hala çevrilən fərarilik, ölüm, təcavüz, korrupsiya, intihar faktları onun vəziyyətinə birbaşa təsirini göstərir. "4rd.am" saytı Ermənistan baş prokurorluğunda etibarlı mənbədən aldığı məlumata əsasən, yazır ki, cari ilin 8 ayı ərzində Ermənistan silahlı qüvvələrinin 28 hərbçisi ölüb. Ölkədə 16 hərbçi xidmət zamanı, 12 hərbi qulluqçu isə qeyri-müəyyən şəraitdə dünyasını dəyişib. Belə faktların çoxluğu fonunda aydın görünür ki, ölkədə ordunun çöküşü əvvəlki dinamika ilə davam edir.

Bu arada Ermənistanda sürətlənən iqtisadi tənəzzül yeni işsizlər ordusunun yaranmasına, fəaliyyətini dayandıran müəssisələrin sayının sürətlə artmasına səbəb olur. Erməni mediası yazır ki, bu gedişlə ölkədə hansısa istehsaldan danışmaq mümkün olmayacaq. Elə müharibədəki məğlubiyyətdən sonra Paşinyan komandasının böyük əksəriyyətini yeni kadrlarla əvəzləsə də, bu, hansısa ciddi dəyişikliyə gətirib çıxarmayıb. Bir çox dövlət qurumlarında məmurların ixtisarı da vəziyyəti dəyişmir. Özü də bu ixtisarlar güc strukturlarını əhatə etmir. Erməni mediası yazır ki, əslində, Paşinyan hərbi-polis rejimi yaratmaqda maraqlı olduğu üçün ixtisar prosesini bu şəkildə aparır. Çünki məhz hərbi-polis rejimi şəraitində hakimiyyətini təhlükəsiz sayır.

Digər tərəfdən, bu ixtisarlarla Nikol Paşinyan rejimi büdcə xərclərinə qənaət etməyi düşünür. Amma buna rəğmən, Ermənistanın büdcəsini formalaşdırmaq hökumət üçün getdikcə daha böyük müşkülə çevrilir. Digər tərəfdən, formalaşan büdcənin əsas hissəsi korrupsiya sayəsində ölkə rəhbərliyinin cibinə axır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

**Ötən sutka ərzində erməni silahlı birləşmələri tərəfindən mövqelərimiz ümumilikdə 10 dəfə atəşə tutulub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bunlardan 6-sı Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər, Qarakilsə və Gorus rayonları istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərini atəşə tutmaqla baş verib.

Digər 4 hadisə isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər, Goranboy və Füzuli rayonları istiqamətlərində yerləşən mövqelərini snayper tüfəngindən və müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutmaqla qeydə alınıb.

Şəxsi heyət və texnikamızda itki yoxdur.

Bütün hallarda Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Bildirilib ki, son vaxtlar Azərbaycan-Ermənistan dövlət sərhədində, eləcə də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində baş verən gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Sumqayıtda ana südü ilə qidalandırmaya həsr olunan tədbir keçirilib



Sumqayıt Tibb Mərkəzinin (STM) tabeliyindəki Perinatal Mərkəzin təşkilatçılığı ilə "Ümumdünya ana südü ilə qidalandırma həftəsi"nə həsr olunan tədbir keçirilib.

STM-in Perinatal Mərkəzin baş həkimi Təranə Rəcəbli açılış mərasimində bildirib ki, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, BMT-nin Uşaq Fondu və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hər il 1-7 avqust ölkəmizdə də ana südü ilə qidalandırma ilə bağlı müxtəlif tədbirlər keçirilir: "Əsas məqsəd körpələrin ana südü ilə qidalandırılmasını təbliğ və təşviq etmək, ana südü ilə qidalandırmanın körpələrin, o cümlədən anaların sağlamlığı üçün əhəmiyyəti barədə geniş maarifləndirmə aparmaqdır".

Sonra Sumqayıt Tibb Mərkəzinin direktoru Səkinə Sadıxova ana südü ilə qidalanmanın əvəzsiz əhəmiyyətindən söz açıb. Bildirib ki, ana südü körpələrin sağlamlığını yüksək səviyyədə təmin edir və xarici mühitin xoşagəlməz təsirlərinə qarşı onların orqanizminin davamlılığını artırır: "Körpələri ana südü ilə qidalandırmağın mühüm üstünlüklərindən biri də ana ilə uşaq arasında emosional və fiziki əlaqənin təmin olunmasıdır. Bundan əlavə, körpəni ana südü ilə qidalandırmaq ananın sağlamlığına da müsbət təsir edir".

Sonra Ankara Universiteti Tibb Fakültəsinin professoru Ömer Erdeve tədbirin əhəmiyyətindən danışıb. Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, TƏBİB-in, BMT-nin Uşaq Fondunun nümayəndələri də çıxışlarında ana südünün uşağın inkişafı, onun immun sisteminin güclü olması, gələcək fiziki və zehni inkişafına göstərdiyi təsirdən söz açıb və iştirakçıları süni qidalardan uzaq olmağa çağırıblar.

Çıxışlardan sonra "Ana Südü ilə qidalandırmaya sosial yanaşma", "Hamiləlikdə COVID-19-a yoluxmuş analardan doğulan yenidoğulmuşların qidalanması", "Ana Südü ilə qidalandırmanın üstünlükləri", "Ana südünün möcüzəsi" mövzusunda təqdimatlar nümayiş olunub. Sonda iştirakçılara ana südü ilə qidalanmanın faydalarına dair maarifləndirici materiallar paylanılıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün***
***abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

Azərbaycan Dövlət Dəniz Akademiyasının əsas inzibati binasının dəhliz və tədris otaqları, elmi-tədris laboratoriyasının maşın şöbəsi və qaynaq laboratoriyasının cari təmiri üzrə işlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **adda.edu.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 avqust 2022-ci il saat 15:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000 (indeks), Zərifə Əliyeva küç., 18, ADDA-nın əsas inzibati binası**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 3042**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun gəmilərinə polad burazlar və propilen kəndirlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

Azərbaycan Dövlət Dəniz Akademiyasının Materialşünaslıq və materiallar texnologiyası laboratoriyası üçün laboratoriya avadanlıqlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **adda.edu.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 avqust 2022-ci il saat 15:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000 (indeks), Zərifə Əliyeva küç., 18, ADDA-nın əsas inzibati binası**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 3042**

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən Bakı Şəhər İcra Hakimiyyəti Başçısının tabeliyində Mərkəzi Nəbatat Bağının abadlaşdırılması işlərinin satın alınması üçün açıq tender üsulu ilə keçiriləcək müsabiqənin müddəti iştirakçılardan birinin uzadılma tələbini nəzərə alaraq təkliflərin son təqdimolunma tarixi və vaxtı 17.08.2022-ci il saat 15:00-a qədər və zərflərin açılış tarixi və vaxtı 18.08.2022-ci il saat 11:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***



*Təkrar*

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
## *açıq tender elan edir*

LOT-1. Bakı şəhəri, Nərimanov rayonu, Ülvi Bünyadzadə küçəsi, 776-cı məhəllədə yerləşən Cümə məscidinin bərpa-gücləndirmə işlərinin davam etdirilməsinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilənі yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev ünvanında yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-dən (əlaqələndirici şəxs: Əhməd Məmmədov, tel: (050)612-15-27) ala bilərlər.

**İşlərin qısa təsviri:**

Bakı şəhəri, Nərimanov rayonu, Ülvi Bünyadzadə küçəsi, 776-cı məhəllədə yerləşən Cümə məscidinin bərpa-gücləndirmə işlərinin davam etdirilməsi.

Tenderdə iştirak haqqı: **1000,00 (bir min) AZN**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN:1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT-IBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə, rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar;
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- iddiaçının avadanlığı və texnikası barədə məlumatlar;
- analoji işlərdə təcrübə (Analoji iş dedikdə tarixi binaların bərpa işləri nəzərdə tutulur).

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Tender iştirakçıları tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30.08.2022-ci il saat 11:00-a qədər**, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **08.09.2022-ci il saat 17:00-a qədər Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev** ünvanında yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-yə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri **Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev** 17 ünvanında yerləşən "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-də **09.09.2022-ci il saat 11:00-da** açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***


# Ötən həftə 697 hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib



Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, avqustun 1-dən 6-dək Tərtər, Ağdam, Şuşa, Xocavənd, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 204, tank əleyhinə 32 mina və 29 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 697 hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# "Azərişıq" ASC ölkənin bütün regionlarında yenidənqurma işlərini davam etdirir

## Cəlilabad rayonunun Qamışlıgöl və Sadatlı kəndlərinin elektrik şəbəkəsi yenidən qurulur

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC tərəfindən həyata keçirilən investisiya layihəsi çərçivəsində Cəlilabad rayonunun Qamışlıgöl və Sadatlı kəndlərinin elektrik şəbəkəsi yenidən qurulur.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, yenidənqurma işləri çərçivəsində 84 abonenti olan Qamışlıgöl kəndində 3 ədəd komplekt transformator məntəqəsi quraşdırılacaq. 14 km-dan çox 10 kV-luq, 6 km-ya yaxın 0,4 kV-luq elektrik xətti yenilənəcək.

Cəlilabadın Sadatlı kəndində də yenilənmə işləri davam etdirilir. 80 abonenti olan kənd ərazisində 3 ədəd komplekt transformator məntəqəsi quraşdırılacaq. 5 km-dan çox 10 kV-luq, 4 km-ya yaxın 0,4 kV-luq elektrik xətti dəyişdiriləcək.

Hər iki kənddə elektrik sayğacları yenisi ilə əvəz olunacaq. Cəlilabad rayonunun Qamışlıgöl və Sadatlı kəndləri ilə yanaşı, rayonun Albalan, Xəlilli, Güneyli, Allahverən, Məşədilər, Novruzallı, Məlikqasımlı və Yusublu kəndlərində də yenidənqurma işləri davam edir. İşlər yekunlaşdıqdan sonra ümumilikdə 800-ə yaxın abonent keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin ediləcək.

Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir. İşlərin davam etdiyi və yekunlaşdığı digər kəndlər barədə də silsilə məlumatlar veriləcək.


## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərişıq" ASC-nin kollektivi Mərkəzi Aran Regional Enerji Təchizatı və Satışı İdarəsinin rəis müavini Namiz Məhərrəmova oğlu

**NİCATIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəhbərliyi və kollektivi xidmətin Mərkəzi Aran Regional Şöbəsinin rəis müavini

**RAHİB ABDULLA OĞLU HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Kreditləşmənin Təşkili və İdarəolunması Departamentinin direktoru Vüqar Yaqubova anası

**MAHİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyev və kollektivi Azərbaycan Dövlət Dəniz Akademiyasının Tədris və tərbiyə işləri üzrə prorektoru

**ZAHİD ZİYADXAN OĞLU ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6177
Sifariş 2211
Qiymәti 40 qəpik